Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 285 (8012) ÇƏRŞƏNBƏ AXŞAMI, 18 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir



Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Prezident İlham Əliyevə raport verdilər.

Burada ümumilikdə səkkiz bina tikilib. Binaların həyətində uşaq əyləncə meydançası, sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün istirahət guşələri yaradılıb.

Dövlət başçısı mənzillərdə yaradılan şəraitlə tanış oldu.

Müdafiə naziri Zakir Həsənov Prezident İlham Əliyevə mənzillərdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci ildə imzaladığı fərmana əsasən, bu binalardan ümumi sahəsi 37 min kvadratmetrdən çox olan 394 mənzil hərbi qulluqçular üçün ayrılıb. Onların 3-ü birotaqlı, 192-si ikiotaqlı, 185-i üçotaqlı, 14-ü isə dördotaqlıdır. Daimi su, qaz, elektrik enerjisi ilə təmin olunan mənzillərə telefon və internet xətti də çəkilib. İstilik və isti su təchizatını təmin etmək məqsədilə hər bir mənzil kombi sistemi ilə təchiz olunub.

Ölkəmizin iqtisadi potensialı gücləndikcə Azərbaycanın hərbi qüdrətinin artırılması istiqamətində ardıcıl və mühüm işlər görülür, ordu quruculuğu sahəsində tədbirlər uğurla davam etdirilir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi və ordumuzun maddi-texniki bazasının müasirləşdirilməsi baxımından tarixi əhəmiyyətli işlər görülüb. Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi ilə yanaşı, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli, onların əməkhaqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli bir daha sübut edir ki, həyatını vətəni müdafiə etmək kimi şərəfli vəzifəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Silahlı Qüvvələrdə 1992-ci ildən etibarən 20 il və daha çox qüsursuz xidmət etmiş 1279 hərbi qulluqçuya Azərbaycan Prezidentinin fərmanı ilə indiyədək dövlət tərəfindən Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzil verilib.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev hərbçilər və onların ailə üzvləri ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

Bax: səh. 2



# İlham Əliyev Yerevana növbəti xəbərdarlığını etdi

## "Nə vaxta qədər ki bizim torpaqlarımız işğal altındadır, biz bütün imkanlardan istifadə edib Ermənistanı təcrid vəziyyətində saxlayacağıq"

Cənubi Qafqazda hadisələrin inkişaf axarını müəyyən edən əsas dövlət qismində çıxış edən Azərbaycan işğalçı Ermənistana getdikcə daha böyük zərbələr vurmaqdadır. Belə vəziyyət, öz növbəsində, Ermənistanın üzləşdiyi problemlərin miqyasının daha geniş xarakter almasına gətirib çıxarır.

Digər tərəfdən, o da məlum həqiqətdir ki, Ermənistanda uzun illər hakimiyyətdə olan kriminal xunta rejiminin çökməsində Azərbaycan Prezidenti İlham Əliyevin bu işğalçı ölkəyə qarşı tətbiq etdiyi təcrid siyasəti də mühüm rol oynayıb. Söhbət ondan gedir ki, məhz bu təcrid Ermənistanı regionda həyata keçirilən transmilli layihələrdən kənarda qoymaqla Azərbaycan təcavüzkar ölkəni böyük sosial-iqtisadi problemlər məngənəsinə yuvarlaya bilib. Nəticədə yaranmış durumdan bezən xalq Serj Sarkisyan iqtidarının devrilməsində mühüm rol oynayıb.

Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı Prezident İlham Əliyev bu xüsusda bildirib: "Bildiyiniz kimi, bu il Ermənistanda çox ciddi dəyişikliklər baş vermişdir. İyirmi il ərzində hakimiyyəti qanunsuz olaraq zəbt etmiş kriminal xunta rejimi çökdü və bizim dediyimizi indi erməni xalqı deyir. Kriminal, rüşvətxor rejim 20 il ərzində öz xalqını istismar edirdi və bu rejimin acı sonu məntiqə tam uyğundur. Onu da deməliyəm ki, bizim ardıcıl, məqsədyönlü siyasətimiz kriminal xunta rejiminin çökməsində öz rolunu oynamışdır. Çünki bizim siyasətimiz dəyişməz olaraq qalır. Nə vaxta qədər ki bizim torpaqlarımız işğal altındadır, biz bütün imkanlardan istifadə edib Ermənistanı təcrid vəziyyətində saxlayacağıq və buna nail olduq. Bizim təşəbbüsümüzlə reallaşan qlobal enerji, nəqliyyat layihələri Ermənistandan yan keçir. Bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşanır, insanlar ölkəni kütləvi surətdə tərk edir, iqtisadi inkişaf üçün heç bir əsas yoxdur, xarici sərmayə qoyulmur, onların beynəlxalq bazarlara çıxışı çox çətinləşib".

Həqiqətən də, Azərbaycanın həyata keçirdiyi regional layihələr işğalçı Ermənistanın təcridinin daha da dərinləşməsini, ölkədə sosial-iqtisadi müstəvidə vəziyyətin ağırlaşmasını sürətləndirib. Ermənilərin narahatlığını artıran digər məqam həyata keçirilən bu cür layihələrin Azərbaycanın müttəfiqlərinin sayını artırdığı halda, işğalçı ölkənin yanında heç kimin yer almamasıdır.

Bütün dünya dövlətlərinin ölkəmizin ərazi bütövlüyünü tanıması və dəstəkləməsinə toxunan Prezident bildirib: "Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi əks etdirən bir çox qərar və qətnamələri olmuşdur. İkitərəfli sazişlərimizdə bu məsələ bizim mövqeyimizi əks etdirərək öz həllini tapmışdır. Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədinin imzalanması çox əlamətdar hadisə idi. Bu sənəddə göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı dəstəklənir. NATO-nun Zirvə görüşündə ərazi bütövlüyümüzlə bağlı çox önəmli məsələ öz əksini tapmışdır. İkitərəfli imzalanmış sənədlərdə daim bizim mövqeyimiz öz əksini tapır. Mən deyəndə ki bizim beynəlxalq nüfuzumuz artır, bunu nəzərdə tuturam. Eyni zamanda, Azərbaycan xalqı bunu yaxşı bilir ki, hətta Ermənistanın üzv olduğu, bizim üzv olmadığımız təşkilatlarda da bizim mövqeyimiz üstünlük təşkil edir və bu, Ermənistanda isterikaya səbəb olur".

Ardı 4-cü səh.

# Bünövrə möhkəm, perspektivlər geniş

Məhz iqtisadi və siyasi əlaqələrimizin yüksək səviyyədə olmasının nəticəsidir ki, Rusiya Azərbaycanın xarici ticarət dövriyyəsində 3-cü, o cümlədən idxalında 1-ci yerdədir. Bu fakt da göstərir ki, hər iki ölkə arasında yüksək səviyyədə iqtisadi və siyasi münasibətlər mövcuddur. İndiki zamanda isə ölkələr arasında bu cür münasibətlərə hər deyəndə rast gəlinmir.



Sözsüz ki, iki ölkə arasındakı bu cür yüksək münasibətlər Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında olan səmimi dostluq əlaqələrindən qaynaqlanır. Hər iki lider öz ölkəsinin mənafeləri üçün qarşılıqlı faydalı əlaqələrin qurulmasına böyük önəm verir. Bunun üçün dövlət başçıları tez-tez görüşür, aktual olan problemləri həll edirlər.

Prezident İlham Əliyev dekabrın 13-də Bakıda Rusiyanın xarici işlər naziri Sergey Lavrovu qəbul edərkən ölkələrimiz arasında olan iqtisadi və siyasi münasibətləri yüksək qiymətləndirərək demişdir: "Deməliyəm ki, 2018-ci il münasibətlərimizin inkişafı baxımından çox məhsuldar olub. Yüksək səviyyədə xeyli görüşlər, o cümlədən mənim Rusiyaya sentyabr ayının əvvəlində rəsmi səfərim və Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin sentyabrın sonunda Azərbaycana səfərləri olub.

Ardı 4-cü səh.

# Dünyada 34-cü, MDB-də birinci

Bu gün Azərbaycan həm də rahat, müasir dünya standartlarına cavab verən avtomobil magistralları, körpülər, yol qovşaqları, keçidlər ölkəsidir. Bunu beynəlxalq reytinq təşkilatları da təsdiq edir. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"na görə, ölkəmiz yolların keyfiyyət indeksinə görə dünyada 34-cü yerdə, postsovet məkanında birincidir.

Ardı 4-cü səh.



# Ədalətə çağırış

## Leyla Əliyeva sülhün yeganə yolunu göstərdi



Məlum olduğu kimi, oktyabr ayında bir qrup rusiyalı qadınla birlikdə Azərbaycanın işğal olunmuş ərazilərinə səfər edən, qoşunların təmas xəttinə qədər gələn, Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın arvadı Anna Akopyan buradan sülhə "çağırış" etmişdi. Maraqlıdır ki, işğal olunmuş torpaqlarda, işğalçı hərbçilərin əhatəsində baş nazirin xanımı kimi sülhə çağırırdı?!

### Həm məzmunlu, həm təsirli

Təbii ki, münaqişənin səbəblərinin və indiyə qədər aparılmış danışıqların ruhuna uyğun olmayan bu çağırışı işğal etdikləri ərazilərdə xidmət aparan erməni hərbçilərdən başqa heç kim eşitmədi. A.Akopyanın özü isə, yəqin ki, qarşısında çıxış etdiyi həmin hərbçilərə baxarkən "erməni əsgərinin Dağlıq Qarabağda, Ağdamda, Füzulidə, Cəbrayılda, Kəlbəcərdə nə işi var" sualının ətrafında baş sındırmamış olmadı. Axı buralar Azərbaycanın əraziləridir. Axı bu torpaqlardan 700 mindən çox azərbaycanlı didərgin salınıb. Ermənistanın özündə isə Dağlıq Qarabağı tərk etmiş erməni qaçqınlar yoxdur.

Bu yaxınlarda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ünvanına Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinə qeyri-qanuni səfər etmiş rusiyalı bir qrup qadının adından məktub daxil olub. Məktubda bildirilir ki, həmin səfər Ermənistanın baş nazirinin xanımı Anna Akopyanın dəvəti ilə təşkil edilib, həmçinin xahiş olunur ki, bu təşəbbüs dəstəklənsin və Azərbaycana səfərin təşkilinə kömək göstərilsin.

Ardı 3-cü səh.

# Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir

## Prezident İlham Əliyevin çıxışı





- Əziz hərbçilər, əziz dostlar.

Bu gün hərbçilərin həyatında çox əlamətdar bir gündür. Bu gözəl binada 394 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilir. Mən sizi bu münasibətlə ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Arzu edirəm ki, bu gözəl binada rahat yaşayasınız.

Bilirsiniz ki, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir neçə il bundan əvvəl mənim tərəfimdən müvafiq fərman imzalanmışdır. Fərmana əsasən, qüsursuz xidmət göstərən hərbi qulluqçuların ailələrinə dövlət tərəfindən mənzillər verilir. Bu günə qədər 1279 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilib. Mənzillərin hamısı çox gözəldir. Mən bu binaların açılışlarında şəxsən iştirak etmişəm və bu gün də tanış olduğum mənzillər çox rahat, geniş və təmirli mənzillərdir. Azərbaycan nadir ölkələrdəndir ki, belə proqram icra edilir. Bu, bir daha dövlətimizin hərbi qulluqçulara göstərdiyi böyük diqqətin təzahürüdür, bunun nümunəsidir.





Onu da qeyd etməliyəm ki, hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılmışdır. Bir çox şəhərciklər yenidən tikilmişdir. Hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də böyük dərəcədə yaxşılaşıb. Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin, hərbi bazalarımızın təxminən 75-80 faizi standartlara tam cavab verir. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hərbi hissələrin təmiri nəzərdə tutulur. Dövlət bu məqsədlər üçün vəsait ayırır və bundan sonra da ayıracaqdır.

Onu da bildirməliyəm ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün də son illərdə minlərlə ev və mənzil tikilib təhvil verilmişdir. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcəkdir. Bu kateqoriyadan olan insanlar, eyni zamanda, dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar. Onlara minlərlə avtomaşın verilmişdir.





Müharibədən əziyyət çəkən soydaşlarımızın da problemləri öz həllini tapır. Bu il 5800 köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilib. Bu, son illərdə rekord göstəricidir. Biz bu siyasəti gələn il də davam etdirəcəyik.

Siz onu da bilirsiniz ki, builki prezident seçkilərindən dərhal sonra imzaladığım birinci fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur. Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesi başlamışdır. Təqribən 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq. Hazırda siyahılar dəqiqləşdirilir və beləliklə, bu proqramın icrası nəticəsində minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaq. Bu, dövlətin öz şəhidlərinin qəhrəmanlığına görə göstərdiyi diqqətdir, onların ailələrinə göstərdiyi qayğıdır. Ancaq təbii ki, hər sahədə olduğu kimi, bu sahədə də ədalət prinsipi əsas olmalıdır.

Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Azərbaycan dünyada güclü orduya malik olan ölkələrin sırasındadır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır. Bu il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya göstərib. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır. Əlbəttə ki, bizim güclü hərbi potensialımız Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Ordumuzun döyüş qabiliyyəti artır. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Son illərin hadisələri bunu əyani şəkildə göstərir. Deyə bilərəm ki, bu il də Naxçıvan istiqamətində Ermənistan-Azərbaycan sərhədi sahəsində ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar torpaq tam nəzarətimizə keçmişdir. Biz strateji yüksəklikləri əldə etdik. Bu yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisində strateji yollara, kommunikasiyalara tam nəzarət edə bilək. Həm Aprel döyüşləri, həm də uğurlu Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, ordumuz peşəkardır, döyüş qabiliyyəti yüksək səviyyədədir. Ordumuzda yüksək ruh mövcuddur və ordumuz istənilən vəzifəni icra edə bilər.

Əlbəttə, bir daha demək istəyirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir. Biz gücümüzü artırırıq və artıracağıq. Onu da bildirməliyəm ki, bu il bir çox önəmli kontraktlar imzalanmışdır. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü ilk növbədə onun hərbi qüdrəti müəyyən edir.

Ordu quruculuğu prosesində, əlbəttə ki, hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Bax, bu gözəl binada 400-ə yaxın hərbçi ailəsinin yaşaması dediyim sözlərin bariz nümunəsidir, təsdiqidir. Mən bu gözəl binada yaşayacaq bütün hərbçiləri bu hadisə münasibətilə bir daha təbrik edirəm. Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

* * *

Prezident İlham Əliyev hərbçilərin bir qrupuna mənzillərin orderlərini təqdim etdi.

Ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı **Rafiq QULİYEV** öz adından və hərbçi yoldaşları adından Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Cənab Prezident, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində biz hərbçilərə bəxş etdiyiniz bu sevincə görə bütün hərbçilər və onların ailə üzvləri adından Sizə dərin minnətdarlığımızı bildiririk. Əmin ola bilərsiniz ki, bundan sonra da hərbi anda sadiqik və Sizin bütün əmrlərinizi yerinə yetirməyə hazırıq.

Prezident **İlham ƏLİYEV:** Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev hərbi qulluqçuların ailə üzvləri ilə söhbət etdi.

---

## Cəfər Cabbarlının 120 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin mart ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, yazıçı və dramaturq Cəfər Qafar oğlu Cabbarlının anadan olmasının 120 illiyi tamam olur.

Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının geniş şöhrət tapmış nadir simalarındandır. Klassik ədəbi irs zəminində yetişən ədib milli ədəbiyyatın parlaq ənənələrini qorumaqla bərabər, yenilik və müasirlik uğrunda mübarizəni yaradıcılığının əsas qayəsinə çevirmişdir. Dramaturgiyamızın təşəkkülü və yüksəlişi tarixində yeni mərhələnin təməlini qoyan Cəfər Cabbarlının əsərləri milli teatrda mühüm hadisə kimi dəyərləndirilmiş, uzun illər boyu tamaşaçıların bir neçə nəslinin estetik zövqünün formalaşmasında əvəzsiz rol oynamışdır.

Ədəbi-mədəni proseslərin fəal qurucularından biri olaraq sənətkar yaratdığı güclü xarakterlər və koloritli obrazlarla bədii-estetik fikir salnaməmizə misilsiz töhfələr vermişdir. Cəfər Cabbarlı şəxsiyyət azadlığının və humanizmin, milli azadlıq və istiqlal ideallarının tərənnümçüsü olmuş, çoxcəhətli ədəbi və ictimai fəaliyyəti boyunca daim xalqımızın dünya mədəniyyəti səhnəsində layiqli mövqe qazanmasına çalışmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, qüdrətli ədib və dramaturq Cəfər Cabbarlının anadan olmasının 120-ci ildönümünün yüksək səviyyədə qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, böyük ədib və dramaturq Cəfər Cabbarlının 120 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2018-ci il*

---

## Qətər Dövlətinin Əmiri əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Qətər arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Qətər xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2018-ci il*

---

## Qətər Dövləti Əmirinin müavini əlahəzrət Şeyx Abdullah bin Həməd Al Taniyə

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Qətər xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2018-ci il*

---

## İ.M.İsmayılovun Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

İlham Mehdixan oğlu İsmayılov Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2018-ci il*

---

## Elektrik enerjisi istehsalının artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkənin elektrik enerjisi sisteminin əsas generasiya mərkəzləri olan “Şimal”, “Cənub”, “Sumqayıt” və “Mingəçevir” elektrik stansiyalarının real generasiya güclərinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Şimal”, “Cənub”, “Sumqayıt” və “Mingəçevir” elektrik stansiyalarında təmir-bərpa işlərinin görülməsi və zəruri avadanlıqların tədarük edilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinə nizamnamə kapitalının artırılması üçün ilkin olaraq 30,0 (otuz) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 dekabr 2018-ci il*

# Oqtay ƏSƏDOV: "Azərbaycan və Gürcüstan strateji tərəfdaşlardır"

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov gürcü xalqını yeni prezidentin seçilməsi münasibətilə təbrik edib. Milli Məclisin Sədri deyib ki, Gürcüstan Azərbaycana qardaş ölkədir. Gürcüstanın bayramı Azərbaycanın bayramıdır.



AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, Prezident Salome Zurabişvilinin inauqurasiya mərasimində iştirak edən Milli Məclisin Sədri Oqtay Əsədov Gürcüstan xalqını yeni prezidentin seçilməsi münasibətilə təbrik edib, xoşbəxtlik və firavanlıq arzulayıb. Azərbaycan parlamentinin sədri deyib ki, Gürcüstan və Azərbaycan strateji tərəfdaşlardır. Ölkələrimiz arasında sıx münasibətlər var. Gürcüstanın yeni dövlət başçısının andiçmə mərasimində iştirak etmək bizim üçün vacibdir. Biz Gürcüstanla həmrəyliyimizi ifadə edirik. Burada olmağımızdan məmnunuq.

Xatırladaq ki, ki, Salome Zurabişvilinin andiçmə mərasimində Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətinə xarici işlər nazirinin müavini Ramiz Həsənov, deputatlar Əflatun Amaşov və Hikmət Babaoğlu daxil olub.

# Azərbaycan Milli Məclisinin Sədri Gürcüstan Prezidentinin andiçmə mərasimində iştirak edib





Dekabrın 16-da Telavi şəhərində Gürcüstanın yeni seçilmiş prezidenti Salome Zurabişvilinin andiçmə mərasimi olub.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətinə xarici işlər nazirinin müavini Ramiz Həsənov, Milli Məclisin deputatı, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov və deputat Hikmət Babaoğlu daxildir. Əvvəlcə Gürcüstanın 4-cü Prezidenti Giorgi Marqvelaşvili vida görüşü edib.

Sonra Gürcüstanın dövlət bayrağı gətirilib.

Daha sonra yeni prezident Salome Zurabişvili tribunaya çıxıb.

Gürcüstanın yeni prezidenti əlini konstitusiyanın üzərinə qoyaraq xalqına, millətinə sədaqətlə xidmət edəcəyinə, insanların hüquq və azadlıqlarını qoruyacağına, ölkənin demokratik inkişafına sadiq qalacağına and içib.

Mərasimdə iki minə yaxın insan, o cümlədən 55 ölkədən 150-dən çox qonaq iştirak edib.

# Azərbaycan Milli Məclisinin Sədri Gürcüstanda Türkiyənin vitse-prezidenti ilə görüşüb

Azərbaycan Milli Məclisinin Sədri Oqtay Əsədov Gürcüstan Prezidentinin andiçmə mərasimində iştirak etməsi ilə əlaqədar bu ölkədə səfərdə olarkən Türkiyənin vitse-prezidenti Fuad Oqtayla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə iki qardaş ölkə arasında münasibətlərin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Türkiyə ilə Azərbaycan arasındakı strateji tərəfdaşlığın daha da genişlənməsindən məmnunluq ifadə olunub, bu işdə dövlətlərin başçılarının rolu xüsusi qeyd edilib.

Görüşdə regionda və dünyada gedən proseslər, iki ölkənin artan nüfuzu, birgə həyata keçirilən layihələr və s. məsələlər də müzakirə olunub.

Azərbaycan xarici işlər nazirinin müavini Ramiz Həsənov görüşdə iştirak edib.



# Ədalətə çağırış



Əvvəli 1-ci səh.

Qadınlar Leyla Əliyevadan "Qadınlar sülhə tərəfdardır" təşəbbüsünü dəstəkləməyini və sülhyaratma ideyasını məntiqi sona çatdırmaq üçün onların Azərbaycana səfərinə kömək etmələrini xahiş edirlər. "Biz sülh istəyirik! Biz düşmənçilik edən tərəflərdən xahiş edirik, XXI əsrdə bizim qardaşlarımızın, oğullarımızın, nəvələrimizin müharibədə daha həlak olmamaları üçün nə mümkündürsə etsinlər. Qoy, qan tökülməsi iyirminci yüzillikdə qalsın, gələcək sülh içində olsun" deyə məktubda bildirilir.

Bu məktubu imzalamış rusiyalı qadınlar qrupuna Olimpiya çempionu Svetlana Jurova, ictimai xadim, "Vera" hospislərə kömək xeyriyyə fondunun təsisçisi Nyuta Federmesser, yazıçı, ictimai xadim Lyudmila Ulitskaya və jurnalist Kira Altman daxildirlər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Azərbaycanın işğal olunmuş ərazilərinə səfər edən qadınlara cavabı özünü çox gözlətməyib. Bu günlərdə mətbuatda dərc olunmuş məktubun mətni kifayət qədər əhatəli, məzmunlu və həm də təsirlidir. Çünki bu cavab məktubunda yer alan hər bir sətirdəki fikir əslində vətənini, xalqını və dövlətini dərindən sevən, onun təəssübünü çəkən bir insanın qəlbindən süzülüb gələn milli hiss və duyğuları, dünyanın gözü qarşısında millətinə edilən haqsızlığa qarşı hayqırtısıdır. Öz ictimai fəaliyyəti ilə uzun illərdir dünyada Azərbaycan həqiqətlərini dayanmadan təbliğ edən, Xocalı faciəsini tanıdan bir insanın, ən əsası dövlətinin və xalqının mənafeyi üçün yorulmadan çalışan və öz əməlləri ilə vətənpərvərlik nümunələri yaradan Azərbaycan Prezidentinin övladının cavabı başqa cür də ola bilməzdi.

## Tariximizin müfəssəl izahı

Bu məktubu həm də müraciətdə "biz çox şeyi bilmirik" deyə yazan rusiyalı qadınlara Azərbaycan tarixinin lakonik, lakin olduqca əhatəli və müfəssəl izahı da hesab etmək olar. "Sizin sülhyaratma missiyanızın gedişində səfər etdiyiniz, işğal olunmuş Dağlıq Qarabağ "Ermənistan ilə Azərbaycan arasındakı ərazi" deyil. Dağlıq Qarabağ Azərbaycanın bu gün Ermənistanın işğalı altında olan ayrılmaz hissəsidir. Bu, təkcə bizim ölkəmizin mövqeyi deyil - çoxsaylı beynəlxalq sənədlərdə bu cür təsbit olunub. Rusiya da daxil olmaqla dünya birliyi Azərbaycanı mövcud sərhədləri daxilində tanıyır və Dağlıq Qarabağ bu sərhədlərə daxildir. Hazırda heç bir beynəlxalq hüquqi sənəd yoxdur ki, orada Dağlıq Qarabağın Azərbaycana mənsub olması şübhə altına alınsın, Dağlıq Qarabağ başqa bir dövlətin hissəsi, "mübahisəli ərazi" və ya "Azərbaycan ilə Ermənistan arasındakı torpaq" elan edilsin. Üstəlik, dünya birliyinin bu mövqeyi tarixi reallıqları tam əks etdirir" deyə yazan Leyla Əliyeva daha sonra xronoloji ardıcıllıqla Qarabağın tarixinə nəzər salır, bu qədim torpağın tarixən Azərbaycan ərazisi olduğunu, ermənilərin 1813-cü il Gülüstan müqaviləsi və 1828-ci il Türkmənçay müqaviləsinin imzalanmasından sonra İrandan və Osmanlı İmperiyasından Cənubi Qafqaza, müasir Ermənistanın yerləşdiyi İrəvan xanlığı ərazisinə və Qarabağa, əsasən onun dağlıq hissəsinə kütləvi şəkildə köçürüldüklərini, indiki Ermənistan ərazilərinin tarixi Azərbaycan torpaqları olduğunu, Qarabağdakı xristian kilsələri və monastırlarının Azərbaycan ərazisində mövcud olmuş Qafqaz Albaniyası dövründə yarandığını, ermənilərin tarixi saxtalaşdırmaq cəhdlərini, Cənubi Qafqaz Sovet Rusiyasına birləşdiriləndən az sonra onların Dağlıq Qarabağa iddialarının rədd olunduğunu izah edir.

Rusiyalı xanımların diqqətinə çatdırılır ki, artıq iyirmi beş ildən çoxdur ki, erməni millətçilərinin Dağlıq Qarabağa iddiaları açıq təcavüz, işğal, qəddar "etnik təmizləmələr" formasında həyata keçirilir. Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib. Buraya təkcə Dağlıq Qarabağ deyil, Azərbaycanın Dağlıq Qarabağın ətrafında olan və 1923-cü ildə orada yaradılmış erməni muxtariyyətinə heç vaxt daxil olmamış 7 inzibati rayonun ərazisi də aiddir.

Qarabağın təbiətinin gözəlliyinə heyran olan xanımların diqqətinə Leyla Əliyeva acı statistikanı da çatdırır. İşğal olunmuş ərazilərdə 927 kitabxana, 85 musiqi məktəbi, o cümlədən "Şərqin konservatoriyası" adlanan Şuşada 4 rəsm qalereyası, 6 teatr, 22 muzey məhv edilib. Son dərəcə qiymətli 40 min artefaktın taleyi məlum deyil. Kitabxanalarda 4,6 milyon kitab və qiymətli əlyazma nəşrləri məhv edilib. Nəhayət, Dağlıq Qarabağ münaqişəsinin tarixində ən qanlı və faciəli səhifələrdən biri Azərbaycanın Xocalı şəhərinin məhv edilməsi olub. "Bu şəhərin faciəsini Xatın, Liditse, Oradur faciələri ilə müqayisə etmək olar... Xocalıda 613 nəfər dinc sakin, o cümlədən 63 uşaq, 106 qadın, 70 ahıl insan qətlə yetirilib. Səkkiz ailə bütünlüklə məhv edilib, 27 ailənin hərəsindən yalnız 1 nəfər sağ qalıb. Xocalının məhv edilməsinin dəhşətli tarixini oxuyanda göz yaşlarını saxlamaq mümkün deyil", - deyə Leyla Əliyeva yazır.

## Leyla Əliyeva: "Erməni əsgərləri bu gün Azərbaycan torpağında nə edirlər?"

Başqa bir məsələ isə Dağlıq Qarabağa - cəbhənin erməni əsgərləri olan hissəsinə rusiyalı qadınların səfər marşrutu barədədir. Axı Dağlıq Qarabağın Ermənistanla birbaşa sərhədi yoxdur. Azərbaycanla Ermənistan arasında sərhəd var, amma həmin coğrafiyadakı Laçın, Qubadlı, Kəlbəcər rayonları işğal olunub. Deməli, rusiyalı xanımlar işğal olunmuş Azərbaycan torpaqlarına səfər ediblər. Cavab məktubunda diqqəti buna çəkən Leyla Əliyeva yazır: "Siz öz məktubunuzda yazmısınız ki, cəbhə xəttinin və ya təmas xəttinin ermənilər tərəfində olmusunuz. Lakin siz bu gün həmin cəbhə xəttinin haradan keçməsi barədə fikirləşmisinizmi? Bu, Azərbaycan ilə Ermənistanın dövlət sərhədi və hətta keçmiş DQMV-nin inzibati sərhədi də deyil. Cəbhə xətti Azərbaycan ərazisini, erməni əhalinin heç vaxt olmadığı torpaqları kəsib keçir. İcazə verin, soruşum: sizin dediyiniz "kamuflyajlı və silahlı oğlanlar" - erməni əsgərləri bu gün Azərbaycan torpağında nə edirlər? Nə üçün onlar əllərinə silah alıb Ağdamda, Füzulidə, Kəlbəcərdə, Zəngilanda, Qubadlıda dayanıblar? Onlar öz doğma Ermənistanından onlarca kilometr aralıda, Azərbaycan torpağında nə edirlər? Bunlar xoşagəlməz və kimlər üçünsə naqolay suallardır. Lakin bu suallara cavab verilmədən nə möhkəm sülh ola bilər, nə də səmərəli sülhyaratma təşəbbüsləri".

Rusiyalı xanımlar sülh təşəbbüslərinin reallığa çevrilməsini istəyirlərsə, ilk növbədə bu işə nədən və hardan başladıqlarının fərqində olmalıdırlar. İndiki halda isə onlar hədəf və yollarını düz seçməyiblər. Ona görə Leyla Əliyeva rusiyalı xanımlara cavabında onlara sülh çağırışı üçün nədən başlamaları olduğunu izah edir. Həmin xanımlar ilk növbədə Azərbaycan torpaqlarının azad edilməsinə çağırış etməlidirlər. Leyla Əliyevaya məktubda qeyd etdikləri gənc insanların ölümünün qarşısını almaq üçün sülh təşəbbüsləri Ermənistandan başlamalı, Azərbaycan torpaqlarının işğalına son qoyulmasına çağırış edilməlidir. Bu çağırış erməni qadınlarını və analarını övladlarını Azərbaycanın işğal olunmuş torpaqlarına göndərməkdən çəkindirməlidir.

A.Akopyan həmin xanımlara heç bir sülh yolu göstərə bilməmişdi. Amma Leyla Əliyeva onlara bu yolu təfsilatı ilə göstərdi, onları hədəflərini düzgün seçməyə səslədi. Bu mənada Leyla Əliyevanın məktubu həm də ədalətə çağırışdır. Ədalətli olmaq üçün isə rusiyalı sülh təşəbbüsçüləri işğalçını öz adı ilə çağırmalıdırlar. Əgər bu olmazsa, indiki məzmunlu sülh təşəbbüsləri faydasızdır. Çünki ikili standartlarla sülhə nail olmaq mümkün deyil.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yaponiya parlamentinin deputatı Şəhidlər xiyabanını ziyarət edib

Bakıda iki gün davam edən Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransının iştirakçısı, Yaponiya parlamentinin üzvü Masanobu Ogura dekabrın 16-da Şəhidlər xiyabanında olub.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yaponiyalı deputat Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının məzarlarını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılan "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyub.

Masanobu Oguranı Yaponiyanın Azərbaycandakı səfirliyinin əməkdaşları müşayiət ediblər.



# Qətərin milli bayramı qeyd edilib

Qətərin milli bayramı ilə əlaqədar bu ölkənin Azərbaycandakı səfirliyi dekabrın 17-də rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, rəsmi qəbulda əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Səfirliyin müvəqqəti işlər vəkili Xalid Məhəmməd əl-Malki tədbirdə çıxış edərək ölkəsinin keçdiyi inkişaf yolundan danışıb.

Ölkələrimiz arasında əlaqələrə toxunan diplomat Azərbaycan-Qətər münasibətlərinin bütün sahələrdə yüksələn xətlə inkişaf etdiyini söyləyib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmdə öz yerini daha da möhkəmləndirdiyini vurğulayıb.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov əlamətdar gün münasibətilə Qətər xalqını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından təbrik edib. Nazir bildirib ki, Qətər dövləti dünyada ən sabit inkişafa malik ölkələrdən biridir. Azərbaycan və Qətər arasında xoş münasibətlər var. Beynəlxalq maraqların üst-üstə düşməsi əlaqələrimizi daha da möhkəmləndirir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Qətər həmişə Azərbaycanın haqlı mövqeyini müdafiə edib. Qarşılıqlı rəsmi səfərlər iki ölkə arasında əlaqələrin inkişafı baxımından əhəmiyyətli rol oynayır.

Nazir Kəmaləddin Heydərov qeyd edib ki, ölkələrimiz arasında zəruri müqavilə-hüquq bazasının yaradılması, o cümlədən 2016-cı ildə dövlətlərimizin başçılarının müvafiq qərarı ilə fəaliyyətə başlamış Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiya uğurlu əməkdaşlıq üçün mühüm platforma yaradıb.

Qəbulda rəsmi şəxslər, Milli Məclisin deputatları, səfirlər, jurnalistlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Azərbaycanda 1200-dən çox müdafiə təyinatlı məmulat istehsal olunur

Müdafiə Sənayesi Nazirliyinin yaradılmasının 13-cü ildönümü və nazirlik sistemi işçilərinin peşə bayramı günü münasibətilə tədbir keçirilib.



Əlamətdar gün münasibətilə təbriklərini çatdıran nazir müavini Yəhya Musayev bildirib ki, Prezident İlham Əliyevin bayram ərəfəsində qurumun bir qrup əməkdaşının yüksək fəxri adlar, orden və medallarla təltif etməsi kollektiv tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

Y.Musayev qeyd edib ki, MSN fəaliyyətə başladığı gündən ilkin mərhələdə qarşıya qoyulmuş hədəflərə tam nail olub. Ötən dövrdə nazirliyin müəssisələrində ən müasir texnologiya və avadanlıqla təchiz olunan 50-dən çox yeni istehsal sahəsi yaradılıb. İstehsal sahələrində müasir tələblərə cavab verən rəqəmsal, proqram təminatlı 25-dən çox mürəkkəb texnoloji xətt və avadanlıq quraşdırılıb. Eləcə də 2200-dən çox müxtəlif təyinatlı dəzgah, on minlərlə cihaz, alət və tərtibatlar alınıb istismara verilib.

Cari ildə ümumi məhsul istehsalının həcmi 2007-ci illə müqayisədə 6,8 dəfə, müdafiə təyinatlı məmulatların həcmi 33 dəfə artıb. İstehsal olunan məhsulun 80 faizdən çoxu müdafiə, xüsusi təyinatlı məmulatlardır. Son illərdə bu nisbət 90 faizi keçib. İstehsalı mənimsənilən müdafiə təyinatlı məmulatların çeşidlərinin sayı 1200-ü ötüb. Nazirlik fəaliyyətə başladığı gündən ümumilikdə 251 mövzu üzrə müdafiə təyinatlı məmulatların yaradılması işləri aparılıb. Onlardan Müdafiə Nazirliyinin və digər güc strukturlarının tələbatına uyğun 138 mövzu üzrə 370 adda müdafiə təyinatlı məmulatın yaradılma işləri başa çatdırılıb və silahlanmaya tövsiyə olunub. Məmulatların yaradılması zamanı 344 növ sınaq keçirilib. Hazırda müəssisələrdə 113 adda müdafiə təyinatlı məmulatın yaradılması istiqamətində təcrübi-konstruktor işləri davam etdirilir.

Bildirilib ki, ölkə sənayesinin dayanıqlı inkişafının təmin edilməsinin əsas istiqamətlərindən olan ixrac potensialının genişləndirilməsi və idxalın yerli istehsalla əvəzlənməsi üzrə nazirlikdə məqsədyönlü işlərə başlanılıb. Bu gün nazirliyin müəssisələrində yaradılan və istehsal olunan müxtəlif növ döyüş sursatlarının, müasir atıcı və artilleriya silahlarının, zirehli texnikaların, xüsusi təyinatlı patrul maşınının və digər məmulatların ixracı həyata keçirilir. Hazırda onlarla ölkəyə Azərbaycan istehsalı olan hərbi məhsullar ixrac edilir. Ötən illə müqayisədə bu il ixrac edilmiş məmulatların həcmində 9,2 faiz artım qeydə alınıb.

Y.Musayev diqqətə çatdırıb ki, müxtəlif istiqamətlər üzrə müasir texnologiyalara əsaslanan yeni istehsal sahələrinin yaradılması, idxalı əvəz edəcək məhsulların yerli istehsalının təşkili, ixrac potensialının artırılması, hazırda fəaliyyət göstərən istiqamətlərin təkmilləşdirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. İstehsal müəssisələrinin fəaliyyətinin tənzimlənməsi üçün özünütəminetmə səviyyəsinin yüksəldilməsi qarşıda duran əsas vəzifələrdəndir. Bu istiqamətdə görüləcək ən mühüm işlərdən biri müdafiə təyinatlı məmulatlarla yanaşı, mövcud istehsal bazasından istifadə etməklə mülki məmulatların da istehsalını genişləndirməkdir. Müdafiə sənayesinin inkişafı bilavasitə yeni hərbi məhsulların yaradılması üzrə elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin aparılmasından asılıdır. Sahə üzrə davamlı inkişaf naminə bu istiqamətdə də müvafiq işlər görülür. Bütün bu uğurlar Prezident İlham Əliyevin ölkənin sənaye infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirdiyi kompleks tədbirlərin nəticəsidir.

Digər çıxış edənlər də bildiriblər ki, nazirliyin kollektivi Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə respublikanın müdafiə sənayesinin inkişafı istiqamətində qüvvələrini bundan sonra da birləşdirərək Azərbaycan Ordusunu yeni növ silah, hərbi texnika və döyüş sursatları ilə təmin edəcək.

Sonra Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təltif olunan əməkdaşlara mükafatlar təqdim edilib. Həmçinin MSN-in xidmətdə fərqlənən əməkdaşları təltif ediliblər.

# Sosial şəbəkələrdə mənəvi dəyərlər qorunmalıdır

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi "Dini qurumlar və sosial media" mövzusunda konfrans keçirib

Dekabrın 17-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini qurumlar və sosial media" mövzusunda konfrans keçirildi.







Konfransı giriş sözü ilə açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mövzu ilə bağlı fikirlərini bölüşərək bildirdi ki, sosial media və onun funksiyaları hər zaman müzakirə predmeti olub və bu vasitə dünyada insanlar arasında ünsiyyət yaradılması baxımından digər media nümunələrini üstələməkdədir.

Sosial medianın müsbət tərəfləri ilə yanaşı, müəyyən problemlər yaratdığını da vurğulayan Mübariz Qurbanlı qeyd etdi ki, Avropanın ən inkişaf etmiş ölkələrində belə sosial mediaya nəzarət edilir: "Çünki bu sahədə insani dəyərlərə, əxlaqa zidd məsələlərlə əlaqədar məlumatlar geniş şəkildə yayılır, təşviq və təbliğ olunur. Ona görə də bu mövzu Azərbaycanda da daim diqqət mərkəzindədir. Bu sahədə maarifləndirməyə ehtiyac duyulur".

Daha sonra komitənin İctimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Vüsalə Hüseynova "Sosial media və din" mövzusunda təqdimatla çıxış etdi. İnformasiya əldə etmənin müasir insanın zəruri ehtiyaclarından birinə çevrildiyini xatırladan Vüsalə Hüseynova texnologiyanın inkişafının ənənəvi media sahəsində "sosial media" məfhumunun yaranmasına yol açdığını qeyd etdi.

Vüsalə Hüseynovanın fikrincə, artıq sosial media sosial ünsiyyət vasitəsinə çevrilib: "Hazırda dünyada 3 milyarddan çox insan internetə qoşulur, 2 milyarddan çox istifadəçi fəal şəkildə sosial mediada iştirak edir. Azərbaycanda isə əhalinin 75 faizindən çoxu fəal internet istifadəçisidir və 2 milyon nəfər isə sosial media iştirakçısıdır".

Sosial medianın müsbət və mənfi yönlərini sadalayan Vüsalə Hüseynova bildirdi ki, sürətli rabitə vasitəsi olan bu sahənin insanlara həm fiziki, həm psixoloji, həm də mənəvi zərəri var.

Sosial medianın insanlara vurduğu mənəvi zərərdən söz açan Vüsalə Hüseynovanın sözlərinə görə, bu gün yalan informasiya yayan, din pərdəsi altında gizlənmiş, islamı tənqid edən qüvvələr çirkin əməlləri üçün sosial medianın imkanlarından çox effektli şəkildə istifadə edirlər. Sosial şəbəkə ölkədə sabitliyi pozmaq istəyənlər üçün güclü təbliğat obyektidir. Bütün bunlar da mətbuatın gücünün dəyərləndirilməsi məsələsini aktuallaşdırır. Bu sahədə müəyyən addımlar atılsa da, təəssüf ki, hələ həmin qüvvələrin qarşısı alınmayıb. Radikalizmlə mübarizə mexanizmi təkmilləşdirilməlidir. Cəmiyyətə sosial media vasitəsilə islam dininin dəyərlərini çatdırmaq üçün aktiv olmaq lazımdır. Din xadimləri bu yöndə sosial şəbəkələrdə fəaliyyətlərini artırmalıdırlar.

Daha sonra çıxış edən Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov qeyd etdi ki, bəzi qüvvələr sosial şəbəkələrdən fəal istifadə etməklə Azərbaycana qarşı kampaniyalar aparırlar. Sabitliyə əsas təhlükə radikal dini cərəyanlardan və ideologiyalardan gəlir. Bu sahədə daha ciddi problemlər yaranır.

Ə.Amaşov qeyd edib ki, Azərbaycanda baş verən iqtisadi inkişaf ayrı-ayrı ölkələr tərəfindən müsbət qarşılanmır: "Bəzi ölkələr var ki, Azərbaycanla bağlı sistemli şəkildə qarayaxma işi ilə məşğuldur. Bundan da Ermənistan, erməni lobbisi istifadə etməyə çalışır. Bəzi qüvvələr var ki, sosial şəbəkələr vasitəsilə Azərbaycanı geriyə aparmağa çalışır. Radikal dini cərəyanlar da əlavə problem yaradır".

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov isə bildirdi ki, Prezident İlham Əliyev tərəfindən Azərbaycanda "İslam həmrəyliyi ili", "Multikulturalizm ili"nin elan olunması bu sahədə jurnalistlərin səriştə və peşəkarlığının artmasına kömək edir: "Hansısa dinin daxilində fikir ayrılıqlarının olması dinin zəifləməsinə gətirib çıxarır. Dinlər arasında mehribanlıq yoxdursa, bu, bəşəriyyətə bəla gətirə bilər. Azərbaycanın dini mövqeyinin dünyaya çatdırılması və bunun artıq dünya tərəfindən öyrənilməsi ən böyük uğurlarımızdan biridir".

Bəxtiyar Sadıqov əlavə etdi ki, media dünyagörüşü, biliyi olan jurnalistlərin çalışdığı sahədir. Sosial şəbəkələrdə isə fərqli düşüncəyə, əqidəyə malik, hətta normal dünyagörüşü olmayanlar da fikir paylaşırlar. Media təkmil qaydalar, qanunlar əsasında fəaliyyət göstərir. Bunu "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları" bir daha təsdiqləyir. Ancaq sosial şəbəkələrdə xüsusən insanlarla bağlı sərhədlər pozulur: "Arzu edək ki, sosial şəbəkələr də nə zamansa media səviyyəsinə gəlib çata bilsin".

Bu gün Azərbaycan mətbuatının din mövzusunda təkmilləşdiyini və dini radikalların təsiri altına düşmədiyini xatırladan deputat Bəxtiyar Sadıqov bildirdi ki, media nümayəndələri hər bir mövzuya düzgün yanaşmağı bacarırlar: "Şəhidlik ən yüksək zirvədir. Onu müqəddəs bilirik. Ancaq görürsünüz ki, son zamanlar sosial mediada şəhidliklə bağlı qəbulolunmaz hallara rast gəlinir. Media sosial şəbəkələrdə müzakirələrin düz istiqamətdə getməsinə kömək etməlidir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər Cavadlı, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Aparat rəhbəri Aytən Qəhrəman, Azərbaycan Respublikasının Alban-udi xristian dini icmasının sədri Robert Mobili mövzu ilə bağlı fikirlərini bölüşdülər.

Qeyd edək ki, konfransın keçirilməsində məqsəd sosial şəbəkələrdə dini qurumların fəaliyyətinin müzakirəsi idi.

***Fərizə ƏHMƏDOVA, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ISESCO-nun Baş direktorunun və TÜRKSOY-un Baş katibinin müavinləri ilə görüşüb

Dekabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri və TÜRKSOY-un Baş katibinin müavini Fırat Purtaş ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ali Məclisin Sədri qonaqları salamlayaraq deyib ki, Naxçıvan islam və türk dünyasının mərkəzində yerləşir. "Quran-i-Kərim"də adı çəkilən Əshabi-Kəhf Ziyarətgahı, eyni zamanda Nuh peyğəmbərin məzarı Naxçıvandadır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsini, İslam Mədəniyyətinin Paytaxtı və TÜRKSOY-un tədbirlərinin birgə keçirilməsini yüksək dəyərləndirən Ali Məclisin Sədri deyib ki, ötən dövrdə muxtar respublikada türk-islam abidələri bərpa olunub.

Ali Məclisin Sədri Naxçıvanda Türk Universitetinin yaradılması, eləcə də müxtəlif istiqamətlər üzrə əlaqələrin inkişafı sahəsində potensialın olduğunu bildirib.

Amina Əl-Həcri İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin salamlarını Ali Məclisin Sədrinə çatdıraraq deyib ki, İslam Mədəniyyətinin Paytaxtları tədbirinin əsas məqsədi tarixi-mədəni abidələrə yeni baxış, onların bərpası və tanıdılmasıdır. Zəngin tarixi-mədəni irsə malik olan Naxçıvanda bu istiqamətdə mühüm işlər görülüb. Naxçıvan şəhərinin qədim tarixi ilə yanaşı, müasir inkişafı və təmizliyi də məmnunluq doğurur.

TÜRKSOY-un Baş katibi Düsen Kaseinovun salamlarını Ali Məclisin Sədrinə çatdıran Fırat Purtaş qeyd edib ki, 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi və əməkdaşlığın inkişafı sahəsində qəbul edilmiş qərarlar bu gün uğurla reallaşdırılır. Naxçıvan bu işə öz töhfəsini verir. Bu gün Naxçıvan şəhərində yüksək səviyyədə keçirilən "Türküstandan Anadoluya irfan məktəbinin alimləri"nin 2-ci konfransı da bu tədbirlərin davamıdır. Fırat Purtaş, həmçinin vurğulayıb ki, TÜRKSOY və İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında 3 illik əməkdaşlıq protokolu imzalanıb. Naxçıvan TÜRKSOY və ISESCO arasında, o cümlədən İslam Mədəniyyəti Paytaxtları ilə Türk Dünyasının Mədəniyyət Paytaxtları arasındakı əlaqələrin qurulması və inkişafı baxımından mərkəz rolunu oynayır.

Fırat Purtaş türkdilli ölkələr arasındakı əlaqələrin inkişafına verdiyi töhfələrə görə Ali Məclisin Sədrinə TÜRKSOY-un "25-ci il Xatirə Medalı"nı təqdim edib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018" tədbirlərinin dünyada və ölkəmizdə böyük maraqla qarşılandığını bildirib, yaradılan şəraiti və göstərilən dəstəyi yüksək dəyərləndirib, Ali Məclisin Sədrinə xatirə rəsmi hədiyyə edib.

Ali Məclisin Sədri İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin və TÜRKSOY-un Baş katibi Düsen Kaseinovun salamlarına görə təşəkkürünü bildirib, onun da salamlarını ISESCO-nun Baş direktoru və TÜRKSOY-un Baş katibinə çatdırmağı xahiş edib.

# Bünövrə möhkəm, perspektivlər geniş

*Əvvəli 1-ci səh.*

Bu səfərlər çərçivəsində biz qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərini müzakirə etmişik, gələcək əməkdaşlıq yollarını müəyyənləşdirmişik... Mən, həmçinin "Şimal-Cənub dəhlizi"nin yaradılması ilə bağlı bizim fəaliyyətimizin nəticələrini məmnunluqla qeyd etmək istərdim. Bu istiqamətdə fəal qarşılıqlı fəaliyyət göstəririk. Müvafiq strukturlar, nəqliyyat qurumları çox məhsuldar işləyirlər. Bu il artıq yaxşı nəticələri görürük. Biz digər tərəfdaşlarımızla, qonşularımızla bu layihəni mümkün qədər tez başa çatdırmaq üçün birgə səylərimizi davam etdirəcəyik".

Xəbər verildiyi kimi, iki ölkə arasında iqtisadi əməkdaşlığı genişləndirmək üçün dekabrın 14-də Moskvada Hökumətlərarası Dövlət Komissiyasının 17-ci iclası keçirilib. Azərbaycan tərəfindən komissiyanın həmsədri, iqtisadiyyat naziri Şahin Mustafayev Rusiyanın ölkəmizin əsas ticarət tərəfdaşı olduğunu bildirərək iki ölkə arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən danışıb. Nazir vurğulayıb ki, ticarət və qarşılıqlı investisiyanın Azərbaycan-Rusiya əlaqələrində mühüm əhəmiyyəti var. Azərbaycan Rusiya iqtisadiyyatına 1 milyard, Rusiya tərəfi isə ölkəmizdə müxtəlif sahələrə 4,2 milyard dollardan çox investisiya yatırıb. Qeyd edək ki, iqtisadi əlaqələrimizin əsas xüsusiyyətlərindən biri də Rusiyanın müxtəlif regionları ilə Azərbaycanın birbaşa münasibətlər qurmasıdır. Ötən illərin təcrübəsi göstərir ki, bu yol hər iki tərəf üçün səmərəlidir, bürokratik əngəlləri aşmağın asan yoludur.

Komissiyanın iclasında bildirilib ki, ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün 200-ə yaxın siyasi və iqtisadi sənəd imzalanıb. Son 5 ildə Azərbaycan və Rusiya arasında 50-yə yaxın biznes-forum və işgüzar görüşlər təşkil edilib. Belə tədbirlərdən biri də cari il sentyabrın 27-də keçirilən Azərbaycan-Rusiya regionları forumu olub.

Bu cür işgüzar və qarşılıqlı səmərəli olan münasibətin nəticəsidir ki, indi Azərbaycan bazarında 760 birgə müəssisə fəaliyyət göstərir. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il 450 milyon dollarlıq 42 birgə layihəyə dəstək verib.

Şimal qonşumuzla energetika sahəsində də uğurlu əməkdaşlığımız var. Bu əməkdaşlıq çərçivəsində "LUKoyl" Azərbaycanın energetika sektoruna 4 milyard dollara yaxın sərmayə qoyub. Yaxın vaxtlarda isə "Rostneft" SOCAR-la "Qoşadaş" neft-qaz yatağı kəşfiyyatı və mənimsənilməsi işinə başlayacaq. Bununla yanaşı, ölkəmiz maşınqayırma və digər sahələrdə də Rusiya ilə iqtisadi əməkdaşlığı davam etdirir.

Rusiya ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının da əsas alıcısıdır. Qonşu ölkədə Azərbaycanın keyfiyyətinə görə fərqlənən meyvə və tərəvəzinə böyük tələbat var. Bu səbəbdən Rusiya bazarına kənd təsərrüfatı məhsullarımızın ixracının dinamikası sürətlə artır. Hətta Avropa bazarlarında əsassız bəhanələrlə satılmasına icazə verilməyən kənd təsərrüfatı məhsullarımız Rusiya bazarında asanlıqla satılır. Elə ötən il bizim kənd təsərrüfatı məhsullarımızın Rusiya bazarında satışının 12 faiz artması da bunu sübut edir. Bu, yarım milyard dollarlıqdan çox məhsulun satılması deməkdir.

30-dan çox Azərbaycan şirkəti keçən il sentyabrın 17-dən 20-dək Moskvada keçirilən Beynəlxalq Ərzaq Sərgisində iştirak edib. Bununla yanaşı, Azərbaycan sərmayədarları Rusiyada kənd təsərrüfatı obyektlərinin inşasında iştirak edirlər. Belə müəssisələr sırasında Nijni Novqorod vilayətində istixana kompleksini və Krasnodar diyarında ərzaq məhsullarının istehsalı üzrə birgə müəssisəni misal çəkmək olar.

Bütün bu və digər faktlar bir daha göstərir ki, qədim tarixə və yeni siyasi-iqtisadi maraqlara söykənən Azərbaycan-Rusiya münasibətlərinin bünövrəsi möhkəm, perspektivləri genişdir.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Dünyada 34-cü, MDB-də birinci



*Əvvəli 1-ci səh.*

Azərbaycanın dünyanın 140 ölkəsi arasında yol infrastrukturunun keyfiyyət indeksi üzrə 34-cü pilləyə yüksəlməsi sıradan bir fakt deyil. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan yenidənqurma tədbirlərinin və onun tərkib hissəsi olan yol infrastrukturunun təkmilləşdirilməsinin nəticəsidir.

Bəli, bu gün Azərbaycan yolların keyfiyyətinə görə bir sıra Avropa ölkələrini, o cümlədən Litva, Estoniya, Sloveniya, Norveç, İrlandiya, Belçika, İtaliyanı geridə qoyur. Ölkəmiz bu sahə üzrə Gürcüstandan 46, Rusiyadan 70, Qazaxıstandan 72, Ukraynadan 89 pillə irəlidədir.

Azərbaycanda cari ildə yol infrastrukturunun qurulması istiqamətində bir sıra layihələr icra edilib. Hələ ilin əvvəlində dövlət başçısı tərəfindən aidiyyəti qurumlara ən azı 600 kəndi birləşdirəcək 2000 km-dən çox avtomobil yolu çəkilməsi barədə tapşırıq verilmişdi. Həmin tapşırığa əsasən, uzunluğu 452,1 km olan respublika əhəmiyyətli 12, Bakı şəhəri üzrə uzunluğu 107,8 km olan 13 və uzunluğu 1534,9 km olan 67 kəndlərarası avtomobil yolları və 2 körpü bərpa olunub, Sumqayıt şəhərində 2 prospekt və 2 küçə əsaslı təmir edilib. Bütün bunlar 702 yaşayış məntəqəsində yaşayan 2,7 milyon nəfər əhalinin 2050 km rahat avtomobil yollarından istifadə etməsi deməkdir.

Cari ilin 9 ayı ərzində dövlət başçısının imzaladığı sərəncamlara uyğun olaraq, ölkəmizin 23 rayonunda 54 layihənin icrası, 12 ölkə əhəmiyyətli, 37 kəndlərarası avtomobil yollarının tikinti və yenidənqurulması başa çatdırılıb. Bu dövrdə ümumi istifadədə olan 9 körpü də təmir edilib.

Azərbaycan dəmir yolu kimi avtomobil nəqliyyatı yolları üzrə də beynəlxalq əhəmiyyətli qovşağa çevrilir. Bunun üçün beynəlxalq əhəmiyyətli "Şimal-Cənub" dəmir yolu ilə yanaşı, magistral avtomobil yollarının tikintisi və yenidən qurulması da sürətlənir. Artıq bu istiqamətdə Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisinə start verilib.

***R.KAMAL, "Azərbaycan"***

# İlham Əliyev Yerevana növbəti xəbərdarlığını etdi

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, Avropa İttifaqı və Azərbaycan arasında imzalanan Tərəfdaşlıq Prioritetləri Sənədində Avropa İttifaqı tərəfindən növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü, suverenliyinə dəstək ifadə olundu. NATO-ya üzv ölkələrin liderlərinin Brüsseldəki sammitinin yekunlarına dair bəyannaməsində yer alanlar da Ermənistan üçün daha bir diplomatik zərbə oldu. NATO-nun Brüssel sammitində qəbul edilən Yekun Kommunikedə Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının xüsusi olaraq qeyd edilməsi ölkəmizin yeni diplomatik uğuruna çevrildi.

Bununla yanaşı, o da aydındır ki, işğal siyasətinin davam etməsi fonunda Azərbaycanın gördüyü tədbirlər Ermənistanın iflasını daha sürətli vəziyyətə gətirəcək. Bu isə Ermənistanda çoxsaylı problemlərin miqyasını bir qədər də genişləndirəcək. Elə 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejimin hakimiyyətdən qovulmasını təmin edən məqamlardan biri də məhz Azərbaycanın həyata keçirdiyi təcrid siyasəti oldu. Eyni zamanda ordumuzun vurduğu zərbələr də burada öz rolunu oynadı.

Yuxarıda qeyd olunan tədbirdə çıxışı zamanı Prezident İlham Əliyev bununla bağlı qeyd edib: *"İşğal edilmiş torpaqlarımızın bir hissəsinin iki il bundan əvvəl işğalçılardan azad edilməsi, o torpaqlarda Azərbaycan bayrağının qaldırılması kriminal rejimə çox böyük zərbə olmuşdur. O vaxtdan bu günə qədər o ölkənin güclü olmayan dayaqları daha da laxlayaraq sıradan çıxıb. Yəni, bu, bizim qonşuluğumuzda baş vermiş hadisələrdir. Əlbəttə, hesab edirəm ki, bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb. Bir çox amillər bunu deməyə əsas verir. İlk növbədə, bizim artan gücümüz, potensialımız, iqtisadi, hərbi, siyasi gücümüz, beynəlxalq mövqelərimiz bunu deməyə əsas verir. Biz bu istiqamətdə öz ardıcıl siyasətimizi davam etdirəcəyik".*

Qeyd olunduğu kimi, bütün bunlara görə məsuliyyət də birbaşa Ermənistanın və onun hazırki rəhbərliyinin üzərinə düşür. Lakin görünən odur ki, işğalçı ölkənin siyasi-diplomatik başbilənləri müasir geosiyasi proseslərin sürətli yeniləşməsi qarşısında reallığı qəbul etməkdə acizdirlər. Bu səbəbdən də hələlik rəsmi Yerevan heç bir konstruktiv qərar qəbul edə bilmir. Belə vəziyyət öz növbəsində sürətlə Ermənistanın əleyhinə işləyərək onun üzləşdiyi problemlərin miqyasını daha da dərinləşdirir.

Ekspertlər isə hesab edirlər ki, yaxın zamanda Ermənistan rəhbərliyi münaqişənin substantiv danışıqlar yolu ilə həllində, regionda davamlı sülhün və sabitliyin təmin olunmasında əməli addımlar atmasa, onda Azərbaycanın işğalçı ölkə üçün aprel dərslərini təkrarlaması qaçılmaz olacaq.

Rəsmi Bakı bildirir ki, Ermənistanın yeni hökuməti bunu yaxşı başa düşməli, əvvəlki kriminal xunta rejiminin səhvlərini buraxmamalıdır. Amma hələlik yeni Ermənistan iqtidarı bu məsələdə birmənalı mövqe sərgiləmir. Belə vəziyyətdə isə Bakı Ermənistanı sarsıdan addımlar atmaqda davam edəcək. İşğalçı ölkə bilməlidir ki, bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər istənilən hakimiyyət dəyişikliyi bu ölkədəki problemləri aradan qaldırmaq iqtidarında olmayacaq.

İndi seçim qarşı tərəfindir. Ermənistan rəhbərliyi bundan əvvəl iqtidarda olan səhra komandirlərinin siyasətini davam etdirsə, onda ordumuz tərəfindən sərt zərbələrə məruz qalacaq. Bu, işğalçı ölkə üçün həm də əlavə yeni problemlər deməkdir. Qarabağ münaqişəsinin dinc yolla həlli isə Ermənistanın bu gün üçün yeganə xilas yoludur və bunu əslində, işğalçı ölkədə də görənlərin sayı kifayət qədərdir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

İlə yekun vurulur

# Sahibkarlığın inkişafı sahəsində Azərbaycan dünyanın aparıcı ölkələri sırasındadır

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrəti günbəgün yüksəlir. Azərbaycan artıq dünyada özünəməxsus milli inkişaf modeli ilə seçilən, habelə sərmayədar dövlət və qlobal böhran şəraitində belə makroiqtisadi sabitliyi təmin edən ölkə kimi tanınıb. Prezident İlham Əliyevin rəhbərliyi altında son on beş ildə respublikamız dünyada güclü, müstəqil, müasir və mütərəqqi texnologiyalar əsasında inkişaf edən bir ölkə kimi nüfuz qazanıb.



Azərbaycan Prezidenti İlham Əliyev milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi istiqamətində səfərbər etmişdir. Ötən illərdə keçid dövrünü geridə qoyan respublikanın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə əsas məqsədlərdən biri də milli iqtisadiyyatın rəqabətqabiliyyətliyinin yüksəldilməsinə və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir.

Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payı və rolunu davamlı şəkildə artırır.

Ölkənin iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi Prezident İlham Əliyevin iqtisadi siyasətinin ana xəttini təşkil edir.

Son illərdə sahibkarlıq fəaliyyətindən gələn gəlirlərin artırılması, bazar iqtisadiyyatı sisteminin təkmilləşdirilməsi və özəl mülkiyyətin əsaslarının möhkəmləndirilməsi yüksək inkişaf tempinə malikdir ki, bunun da əsas səbəbi qanunvericilik bazasının mütəmadi olaraq təkmilləşdirilməsi, müxtəlif dövlət proqramlarının həyata keçirilməsi, iqtisadiyyatın ayrı-ayrı sahələrinə dövlət qayğısının artırılması və iqtisadiyyatın idarə edilməsinə müasir yanaşmanın təmin edilməsidir.

Azərbaycan Respublikasında 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları bölgələrin iqtisadi potensialının artırılmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olmaqla yanaşı, ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfə verir.

2018-ci il yanvarın 29-da keçirilmiş “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın dördüncü ilinin yekunlarına həsr olunan konfransda ölkə Prezidenti Azərbaycanda biznes mühiti ilə bağlı öz fikirlərini bildirərək qeyd etdi ki, “...Ümumiyyətlə, mən biznesin sosial məsuliyyəti məsələləri ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Dövlət iş adamlarına bu qədər şərait yaradır, həm siyasi dəstək, həm də maliyyə dəstəyi göstərir. Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması, islahatların aparılması istiqamətində bu qədər işlər görülür və beynəlxalq qurumlar da bunu qeyd edirlər. Bunun müqabilində iri biznes qurumları gərək öz sosial məsuliyyətini dərk etsinlər. Sosial məsuliyyət təkcə hansısa xeyriyyəçiliklə məşğul olmaq deyil. Sosial məsuliyyət, eyni zamanda, kiçik biznesə, ailə biznesinə dəstək göstərməkdir”.

Qeyd etmək lazımdır ki, regionların proqram təminatlı inkişafa keçidi tarixi hadisə idi və 2004-cü ilin əvvəllərində qəbul edilmiş ilk proqram Azərbaycanın bölgələrinin sosial-iqtisadi inkişafı istiqamətində əsl dönüş yaratdı. Regionların tarazlı və sürətli inkişafı ilə bağlı qəbul edilmiş üç dövlət proqramının icrası nəticəsində ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu yüksəlməkdə, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlarda dünya birliyi tərəfindən yüksək qiymətləndirilməkdədir.

Ölkəmizdə ardıcıl və düşünülmüş şəkildə həyata keçirilən layihə və proqramların nəticəsidir ki, son 15 il ərzində iqtisadiyyatımız 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,8 dəfə artmışdır.

Konkret sahələrə gəldikdə isə sənaye sahəsində 2,6 dəfə, kənd təsərrüfatında 1,7 dəfə, qeyri-neft ixracında 4,1 dəfə artım qeydə alınmışdır. 2004-cü ildə valyuta ehtiyatlarımız cəmi 1,8 milyard dollar olduğu halda, hazırda 45 milyard dollara çatdırılmışdır. Bu da 15 il ərzində valyuta ehtiyatlarının 25 dəfə artması deməkdir. Ölkə Prezidenti cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, valyuta ehtiyatları həm böyük sərvətdir, həm də iqtisadi müstəqillik üçün müəyyən bir qarantdır.

Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan hazırda dünya miqyasında aparıcı dövlətlər sırasındadır. İnvestisiyaların 50 faizdən çoxu xarici investisiyaların payına düşür. Bu da hər şeydən əvvəl müstəqil Azərbaycan dövlətinin gələcəyinə olan inam və ümidin göstəricisidir. Çünki gələcəyi qaranlıq olan ölkələrə, təbii ki, heç bir sahibkar, heç bir dövlət, heç bir şirkət investisiya qoymaz.

Ölkə rəhbərliyinin yüksək dəqiqliklə seçdiyi və uğurla həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət kursu nəticəsində əlverişli biznes və investisiya mühiti investisiya axınının sürətlənməsinə şərait yaratmış, ölkəmizdə orta illik iqtisadi artım 12,2 faiz təşkil etmişdir. Son on beş ildə daxili mənbələr hesabına əsas kapitala yönəldilən investisiyaların həcmi 3,6 dəfə, o cümlədən qeyri-neft sektoruna yönəldilən investisiyalar 9,6 dəfə, minimum əməkhaqqının səviyyəsi 3,5 dəfə, ölkə üzrə orta aylıq əməkhaqqı 3,3 dəfə, orta aylıq pensiya isə 4,7 dəfə artmışdır. Nəticə etibarilə ölkədə yoxsulluğun səviyyəsi 5,4 faizdən, işsizlik səviyyəsi isə 5 faizdən aşağı enmişdir.

Məhz Azərbaycanda aparılan məqsədyönlü iqtisadi siyasət sayəsində 2018-ci ilin doqquz ayında ölkəmizdə 85 min daimi iş yeri açılıb, son 15 il ərzində isə ölkədə 2,0 milyon yeni iş yeri yaradılıb ki, onlardan 1,5 milyonu daimidir. Yeni yaradılmış iş yerlərinin əsas hissəsi, yəni 65 faizi qeyri-dövlət sektorunun payına düşür.



Müstəqil Azərbaycanın inkişaf strategiyasında biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı prioritet istiqamətlərdəndir. Dövlət başçısının “Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır” tezisinə uyğun olaraq, bu istiqamətdə sistemli və ardıcıl tədbirlər həyata keçirilmiş, qanunvericilik bazası təkmilləşdirilmiş, inzibati prosedurlar sadələşdirilmiş, vergi yükü azaldılmış, sahibkarlığa sistemli dövlət dəstəyi tədbirləri həyata keçirilmişdir.

Görülmüş işlər nəticəsində Azərbaycanda güclü özəl sektor formalaşmış, müasir texnologiyalara əsaslanan yüzlərlə müəssisə açılmış, özəl bölmənin payı ümumi daxili məhsulda 80 faizi, məşğulluqda 75 faizi, dövlət qeydiyyatına alınmış sahibkarlıq subyektlərinin sayı isə 900 mini ötmüşdür.

Biznes mühitinin dinamik inkişafı ilə bağlı onu da xatırladaq ki, respublikada təkcə yerli sərmayədarlar üçün deyil, həm də xarici investisiyalara əlverişli mühit yaradılıb. Biznesə başlama prosedurları əsaslı şəkildə sadələşdirilib, vergi qanunvericiliyində xeyli sayda güzəştlər müəyyən edilib, sahibkarlığın və ixracın təşviqinə yönələn tədbirlər reallaşdırılıb.

Ölkə rəhbərinin “Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” fərmanına uyğun olaraq son illərdə biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, o cümlədən prosedurların sadələşdirilməsi, elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, əsassız yoxlamaların qarşısının alınması və digər istiqamətlər üzrə davam etdirilib. Sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, xarici ticarət əməliyyatlarının aparılması, daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində keçirilən islahatların davamı olaraq, korporativ idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və müflisləşmə üzrə qanunvericiliyə zəruri dəyişikliklər edilib.

Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin çıxışı dövlətin sahibkara, sahibkarlıq fəaliyyətinə olan dəstəyinin bariz nümunəsi idi. Prezident qeyd etdi ki, “...Sahibkarlara bundan sonra da dövlət öz dəstəyini göstərəcək. Bu günə qədər Sahibkarlığın İnkişafı Fonduna 2,2 milyard manat vəsait ayrılmışdır. Bu proses davam etdirilir. Mənə verilən məlumata görə, bu il də kreditləşmə uğurla gedir, tələbat çoxdur. Bu, çox sevindirici haldır. Əminəm ki, Sahibkarlığın İnkişafı Fondunun fəaliyyəti nəticəsində gələn il də ölkəmizdə minlərlə iş yeri yaradılacaq”.

Ölkə Prezidentinin müvafiq tapşırıqlarından sonra 2018-ci ilin əvvəlindən iş adamlarına Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 113 milyon manat güzəştli kredit verilmişdir. İlin sonunadək geri qaytarılan vəsaitlər hesabına sahibkarlara daha 170 milyon manat məbləğində güzəştli kreditin verilməsi nəzərdə tutulur.

Fond fəaliyyət göstərdiyi müddətdə investisiya layihələrinin ümumi dəyəri 5,0 milyard manat olan 35 mindən çox sahibkara 2,2 milyard manat güzəştli kredit vermişdir. Güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşüb. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 164 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılmışdır.

Azərbaycanda həyata keçirilən iqtisadi strategiyanın prioritet istiqamətlərindən biri də ölkədə sahibkarlığın inkişafıdır. Bu gün dövlət başçısının “ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır” strateji xəttinə uyğun olaraq sahibkarlığın inkişafına xüsusi diqqət göstərilir, sistemli və kompleks tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, son 15 ildə ölkəmizdə fəaliyyət göstərən sahibkarların sayı 4,2 dəfə artmışdır.

Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq olunur. Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayının son 15 il ərzində artması, ölkəmizdə iş yerlərinin 75 faizinin məhz özəl sektorun payına düşməsi bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.

Son illərdə ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salınmış, ölkədə bəzi məhsullara ixrac rüsumları ləğv edilmiş, idxalda rüsumların 15 faizlik maksimal həddi müəyyənləşdirilmişdir. Bu baxımdan ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması xüsusi diqqət mərkəzindədir. Sahibkarlıq subyektlərində yoxlamaların 2021-ci ilədək dayandırılması öz müsbət nəticələrini verməkdədir.

Eyni zamanda, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılmış, lisenziyalar müddətsiz müəyyən edilmiş, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılmış, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən “ASAN xidmət” mərkəzlərində verilməsinə və “Elektron lisenziya” portalının yaradılmasına başlanılmışdır. “Lisenziyalar və icazələr haqqında qanun” qüvvəyə mindikdən sonra müxtəlif sahibkarlıq fəaliyyətlərinə verilən icazələrin sayı 330-dan 86-ya, lisenziyaların sayı isə 59-dan 37-yə endirilib.

Dekabrın 4-də Bakı Ekspo Mərkəzində “Bakutel-2018” sərgisində Prezident İlham Əliyev bu gün Azərbaycanın biznes sahəsində dünyanın aparıcı ölkələri sırasında olduğunu bəyan edib: “Azərbaycan iqtisadiyyatının davamlı tərəqqisi üçün qeyri-neft sektorunun inkişafı bizim uğurla həll etdiyimiz əsas vəzifəmizdir. Buna görə də biznesə yaxşı şəraitin yaradılması məqsədilə infrastruktur layihələrinin inkişafı üçün çox iş görülür. Biznesin həvəsləndirilməsi, sahibkarlara köməklə bağlı xeyli layihələr var. Bütövlükdə investisiya, biznes mühiti Azərbaycanda yaxşılaşır.

2015-ci ilin sonlarından başlayaraq neft qiymətlərinin aşağı düşməsinə baxmayaraq, Azərbaycanda aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib. Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib.

Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

Azərbaycan Respublikası Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar digər nüfuzlu beynəlxalq reytinqlərlə yanaşı, “Doing Business 2019” hesabatının da bütün indikatorlarını əhatə edib. Nəticədə 2017-ci il və 2018-ci ilin 9 ayında təkcə bu hesabat üzrə 30-a yaxın normativ hüquqi akt qüvvəyə minməklə 70-dən çox islahat tədbiri həyata keçirilib və qeydə alınması üçün “Doing Business” komandasına təqdim olunub. Aparılan islahatlar nəticəsində vətəndaşların və sahibkarların məmnunluğunun artırılması, bu sahədə şəffaflığın təmin olunması ilə yanaşı, müxtəlif sektorlar üzrə inzibati prosedurların sayının və xərclərin minimuma endirilməsinə, dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin daha da yüksəldilməsinə nail olunub.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən islahatlar, öz növbəsində, “Doing Business 2019” hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Belə ki, 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Bildirilib ki, hesabata əsasən ölkəmiz “Tikinti üçün icazələrin alınması” və “Kreditlərin alınması” indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib.

Bunlarla yanaşı, “Kiçik investorların maraqlarının qorunması” indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, “Biznesə başlama” (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub. Bütövlükdə “Doing Business 2019” hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb. Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qəbul edilib.

“Doing Business 2019” hesabatında deyilir: “Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib”.

Bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

Bu, çox böyük uğurdur, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən kompleks islahatlar, xüsusilə qeyd edilən sahələr üzrə aparılan təkmilləşmə tədbirləri nəticəsində nail olunmuş növbəti nailiyyətlərdən biridir. Sözsüz ki, bu uğurların həyata keçirilməsində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələrimizin də rolu var və bu sahədə Dünya Bankının Beynəlxalq Maliyyə Korporasiyasını xüsusi qeyd etmək lazımdır.

Bu gün ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələri arasında, kütləvi informasiya vasitələrində daha çox müzakirə olunan məsələlərdən biri Prezident İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq etdiyi milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsidir. 10 bölmədən, 14 bənddən və 11 hissədən ibarət olan bu sənəd qısa, orta və uzunmüddətli dövrlərə hesablanıb.

“Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”nin beşinci bölməsində göstərilir ki, 2025-ci ilə qədər Azərbaycanda hər il ümumi daxili məhsul istehsalı 3 faizdən çox artacaq və əlavə olaraq 450 mindən çox yeni iş yeri yaradılacaq.

Şəffaf biznes və sağlam rəqabət mühitində sahibkarlığın genişlənməsinə əlverişli şərait yaradılması Azərbaycanın dinamik və uzunmüddətli inkişafı məqsədilə aparılan uğurlu siyasətin əsas istiqamətləri sırasındadır. Bu siyasət milli iqtisadiyyatda, eyni zamanda, yeni iş yerlərinin açılmasında, əmək bazarının inkişafında, məşğulluq səviyyəsinin yüksəldilməsində özəl sektorun, o cümlədən biznesin rolunun əhəmiyyətli şəkildə artmasına səbəb olub.

Sözsüz ki, bu hədəflərə nail olmaq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə strateji yol xəritələrində nəzərdə tutulan vəzifələrin uğurla həyata keçirilməsindən asılıdır. Hesablamalara görə, təkcə 2020-ci ilədək nəzərdə tutulan prioritetlərin yerinə yetirilməsi üçün təxminən 27 milyard manat investisiya lazımdır və bu məbləğ bütün sektorlar üzrə strateji yol xəritələri çərçivəsində tələb olunan ümumi vəsaitdir. Bu vəsait Azərbaycanın strateji yol xəritəsində göstərilən daha yüksək hədəflərə çatmasına kömək edəcəkdir.

Son illərdə ölkəmizdə sahibkarlığın inkişafı və biznes mühitinin yaradılması sahəsində mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması, dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunması, ölkənin əmək bazarının mövcud potensialının təbliği istiqamətində mühüm uğurlar əldə edilib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin qeyri-neft sektoruna göstərdiyi yüksək diqqət nəticəsində bu gün iqtisadiyyatın prioritet istiqamətlərindən olan aqrar sahə yeni inkişaf mərhələsinə qədəm qoyub. Aqrar sahədə aparılan uğurlu islahatlar nəticəsində Azərbaycanda bir sıra strateji məhsullara tələbatın yerli istehsal hesabına tam ödənilməsinə, ölkənin ərzaq təhlükəsizliyində xarici bazardan asılılığın azalmasına, ixracyönümlü məhsulların istehsal həcmini artırmaqla regionların inkişafına nail olunub. Fermerlərin dövlət tərəfindən çoxşaxəli subsidiyalarla təmin edilməsi kənd təsərrüfatı ilə məşğul olanları daha fəal çalışmağa sövq etməklə yanaşı, onların rifah halının yüksəldilməsinə gətirib çıxarıb.

Həyata keçirilən islahatların nəticəsidir ki, artıq aqrar sektorda dayanıqlı inkişaf reallaşıb, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə müsbət nəticələr əldə edilib.

Buna misal olaraq pambıqçılıq, tütünçülük, ipəkçilik və digər sahələri göstərmək olar. 2017-ci ildə ölkə rəhbərliyinin sərəncamları ilə təsdiq olunmuş “2018-2025-ci illər üçün Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair”, “2017-2022-ci illər üçün Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair”, “2017-2021-ci illər üçün Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair” və sair dövlət proqramları qəbul olunmuş və icrasına başlanması ilə bağlı adıçəkilən sahələrdə yüksək irəliləyişlər əldə olunmuşdur.

Qeyri-neft sektorunda aparılan islahatların uğurlu nəticələri məhsul ixracında da özünü göstərmiş, xüsusilə aqrar sektorda istehsalın artması ölkəmizin ixrac potensialını xeyli genişləndirmişdir. Bu ölkənin ümumi inkişafı ilə yanaşı, həm də bölgədəki əhalinin məşğulluğu və rifahı baxımından çox əhəmiyyətlidir. Üstəlik aqrar sektorun ərzaq təhlükəsizliyinin qarantı və buna görə də strateji əhəmiyyət daşıdığını da unutmaq olmaz. Cari ilin 10 ayı ərzində qeyri-neft sektoru üzrə 1,4 milyard dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 132 milyon dollarlıq artıq məhsul ixracı deməkdir.

Ölkəmizdə uğurla reallaşdırılan iqtisadi islahatların prioritetlərindən biri də ixracın genişləndirilməsi, “Made in Azerbaijan” brendi adı altında qeyri-neft məhsullarının istehsalının və ixracının təşviqidir. Artıq demək olar ki, Azərbaycan brendi dünyada şöhrət qazanır və ixrac coğrafiyası hər keçən gün daha da genişlənir. Xarici ölkələrə təşkil edilən ixrac missiyalarının uğurlu fəaliyyəti sayəsində həm tərəfdaşların sayı, həm də ixrac edilən məhsulların həcmi, çeşidi çoxalır. Azərbaycanın xaricdəki ticarət evlərinin sayı getdikcə artır. Ötən 9 ay müddətində bu istiqamətdə həyata keçirilən proseslər və əldə edilən uğurlar da bu fikirləri söyləməyə əsas verir. Beləliklə, bu ilin 9 ayı ərzində 178 ölkə ilə xarici ticarət əməliyyatları həyata keçirilmiş, 14,3 milyard dollarlıq məhsul ixrac edilmiş, sahibkarlara 3,7 milyon manat məbləğində ixrac təşviqi ödənilmiş, 12 ölkəyə 17 ixrac missiyası təşkil olunmuş, Rusiya, Belarus, Ukrayna, Latviya, Çin və Polşada “Azərbaycan Ticarət Evi” fəaliyyətə başlamış, Çində əlavə olaraq iki “Azərbaycan Şərab Evi” açılmışdır.

Bu müddət ərzində ümumilikdə “Azeksport.az” portalına daxil olan ixrac sifarişlərinin dəyəri 410 milyon dollar təşkil edib. Məlumat üçün qeyd edək ki, portalın fəaliyyətə başladığı 21 ay ərzində portala dünyanın 106 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 885 milyon dollar təşkil etmişdir.

Aydın şəkildə görünür ki, ixracın təşviqi, qeyri-neft sənayesinin inkişafı və “Made in Azerbaijan” brendi ilə dünya bazarına çıxarılan məhsulların ixrac coğrafiyasının genişləndirilməsi istiqamətində atılan addımlar, verilən qərarlar ölkəyə böyük dividendlər qazandırmaqdadır.

Qeyri-neft məhsulları ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlər sahibkarların öz məhsullarını ixrac etmək marağını artırıb. İxracın genişləndirilməsi, rəqabətqabiliyyətli məhsulların ənənəvi və yeni bazarlara çıxışının artırılması ilə bağlı imzalanmış sənədlər iş adamlarına geniş imkanlar yaratmışdır.

Prezident İlham Əliyevin ixracın stimullaşdırılması və təşviqi istiqamətində imzaladığı fərman və sərəncamların icrası olaraq ölkədə genişmiqyaslı işlər görülməkdədir. Belə ki, ixrac və investisiya imkanlarının təşviqi, yerli şirkətlərin biznes əlaqələrinin daha da genişləndirilməsi və ölkə iqtisadiyyatına investisiya qoyuluşunun təbliği məqsədilə 9 ay ərzində Azərbaycanda və xarici ölkələrdə 180 tədbir (biznes-forumlar, ikitərəfli görüşlər və s.) təşkil olunub. Bu ilin əvvəlindən 8 ölkənin müxtəlif təşkilatları ilə əməkdaşlığa dair 9 anlaşma memorandumu imzalanıb. Ümumilikdə indiyədək sahibkarlara 6,9 milyon manat, bu ilin yanvar-sentyabr aylarında isə 3,7 milyon manat məbləğində ixrac təşviqi ödənilib.

İqtisadiyyatın şaxələndirilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, özünütəminat səviyyəsinin yüksəldilməsi, məşğulluğun təmin olunması, qeyri-neft məhsullarının ixracının artırılması, idxaldan asılılığın azaldılması və digər strateji vəzifələrin həllində özəl sektor həlledici rola malikdir.

Yeni mərhələnin əsas hədəfi milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla uzunmüddətli perspektivdə ölkədə sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir.

Həyata keçirilən iqtisadi islahatlar Azərbaycan Sahibkarlar Konfederasiyasının qarşısında cox böyük vəzifələr qoyur.

Azərbaycanın möhtəşəm uğurlarına, şübhəsiz ki, sahibkarlar ordusu da özünəməxsus töhfələr verməyə çalışır və bu dövlət başçısının iş adamlarına etimadının bir təcəssümü olaraq mühüm vəzifə kimi qəbul edilir.

Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiyaları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda, eləcə də ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda, habelə investisiya qoyulmasında kömək göstərir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Yerli sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və İnvestisiya imkanlarının təşviqi, habelə yeni bazarlara çıxış məqsədilə İqtisadiyyat Nazirliyinin təşkilatçılığı və Azərbaycan sahibkarlarının iştirakı ilə bir çox beynəlxalq və yerli sərgi, biznes-forumlar, görüşlər təşkil edilmiş, tədbirlərdə sahibkarların iştirakı təmin edilmişdir.

Sahibkarlara biznes əlaqələrini genişləndirilməsi və digər məsələlərdə lazımi xidmətlər göstərilmiş, müxtəlif biznes-forum, təlim və beynəlxalq sərgilərdə onların iştirakıları təmin olunmuşdur. Cari ildə konfederasiyanın xarici ölkələrdə nümayəndəliklərin sayı artırılmışdır.

Azərbaycanın son illərdəki inkişaf dinamikasina nəzər saldıqda belə qənaətə gəlmək olar ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, ölkəmizin siyasi, sosial-iqtisadi, mədəni və bütün başqa sahələrdə inkişafının təmin olunması, əhalinin rifah halının, bütün kateqoriyalardan olan insanların sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər hazırda yüksək templə davam edir. Keçən qısa dövr ərzində nəinki mərkəzi şəhərlərdə, eləcə də regionlarda soial-iqtisadi inkişaf sürətləndirilmiş, abadlıq, quruculuq işlərinin aparılması ilə bağlı genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

***Biz Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji vəzifələrin uğurla və vaxtında həyata keçirilməsi üçün əzmkarlıqla çalışaraq qeyri-neft sektoru məhsullarının istehsalının artırılmasına, regionlarda rentabelli müəssisələrin yaradılmasına, azad sahibkarlığın inkişafı və özəl sektorun üzərinə düşən vəzifələri layiqincə yerinə yetirilməsinə kömək göstərməklə bundan sonra da fəaliyyətimizi genişləndirməkdə davam edəcəyik.***

**Məmməd MUSAYEV,**

***Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

# AMEA-da akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən beynəlxalq konfrans keçirilib

## Görkəmli alimin fotosintezlə bağlı əldə etdiyi elmi nəticələr dünyanın bir çox ölkələrində uğurla tətbiq olunur





Dekabrın 17-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) görkəmli alim və ictimai-siyasi xadim, əməkdar elm xadimi, biologiya elmləri doktoru, akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən "Davamlı inkişaf naminə fotosintez və hidrogen enerjisi tədqiqatları" mövzusunda IX beynəlxalq konfrans keçirilib. Konfransda Azərbaycan alimləri ilə yanaşı, Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan, Türkiyə, İran və digər ölkələrdən də alimlər iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabana gələrək görkəmli alimin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Konfransı açan AMEA-nın prezidenti akademik Akif Əlizadə görkəmli alimin zəngin elmi fəaliyyətindən, keçdiyi ömür yolundan söz açıb. Qeyd edib ki, Cəlal Əliyev ölkəmizdə bioloji müxtəlifliyin mühafizəsi və istifadəsi strategiyasının hazırlanmasında, xüsusilə Azərbaycanın elm tarixində ilk dəfə fotosintez prosesini əsaslı şəkildə öyrənib, bu sahədə uğurlu tədqiqatların aparılmasında böyük xidmətlər göstərib. Akademik Cəlal Əliyev Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin yaradıcısı, bu sahənin inkişafında mühüm xidmətləri olan alimlərdəndir. Onun rəhbərliyi ilə yeni fundamental elmi-tədqiqat işləri təşkil edilib. Görkəmli akademikin elmi yaradıcılığının əhəmiyyətli hissəsi taxılçılığın inkişafına yönəlib.

AMEA-nın prezidenti bildirib ki, ölkəmizdə elmi-praktiki əsaslar üzərində qurulan bitki seleksiyası sahəsində qabaqcıl mövqeyi ilə seçilən Cəlal Əliyev məktəbi formalaşıb. Alimin fotosintezin tədqiqi sahəsində yaratdığı məktəbin əldə etdiyi misilsiz nailiyyətlər, qazanılan uğurlar dünya elmi ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilib. O, ilkin seleksiya nailiyyətlərinin təsərrüfatlara sürətlə tətbiqini təşkil etmək üçün elmlə istehsalatın sıx əlaqəsini yaratmağa nail olub.

"Akademik Cəlal Əliyev Azərbaycanda biologiya sahəsində tədqiqatları inkişaf etdirməklə molekulyar biologiyanın və gen biotexnologiyasının inkişafının əsasını qoyub. Onun akademiyanın elmi əlaqələrinin inkişafında da mühüm rolu olub", - deyə A.Əlizadə vurğulayıb.

Diqqətə çatdırılıb ki, hələ keçmiş sovet dövründə nüfuzlu beynəlxalq tədbirlərdə iştirak edən Cəlal Əliyev öz elmi axtarışlarında ən son yenilikləri tətbiq edib. Məhz onun səyi nəticəsində ölkəmizdə fotosintez sahəsində böyük uğurlara imza atılıb.

Akademik Cəlal Əliyevin öz fundamental tədqiqatları ilə AMEA və Kənd Təsərrüfatı Nazirliyi arasında işgüzar münasibətlərin formalaşmasına böyük töhfələr verdiyini qeyd edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, bu əlaqələr artıq ciddi əməkdaşlıq müstəvisinə keçib. Görkəmli alim Azərbaycanda aqrar elmin yeni istiqamətlərini müəyyənləşdirib, onun əldə etdiyi nəticələrin tətbiqi bu sahədə dayanıqlı inkişafa yol açıb. Bu tədqiqatlar məhsuldarlığın yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Cəlal Əliyevin bioloji müxtəlifliyin mühafizəsi strategiyasının hazırlanmasında da böyük xidmətləri olub.

Nazir diqqətə çatdırıb ki, Azərbaycanda fotosintezin ilkin proseslərinin məhsuldarlıqla əlaqəsinə dair ilk tədqiqatlar akademik Cəlal Əliyevin adı ilə bağlıdır. O, biologiyanın yeni istiqamətlərinin müəyyənləşməsində, xüsusilə fotosintez sahəsində öz layiqli məktəbini yaradıb. Akademikin tədqiqatları əsasında məhsuldar, yüksəkkeyfiyyətli buğda sortları yetişdirilib, onların fizioloji və biokimyəvi əsasları işlənib. Respublikamızda geniş ərazilərdə becərilən bu bərk və yumşaq buğda sortları Cəlal Əliyev sortları kimi tanınır. Fermerlər "Bərəkətli 95", "Qarabağ", "Əzəmətli 95", "Qobustan", "Qırmızı gül 1", "Tale 38", "Ləyaqətli 80" sortlarını həvəslə becərirlər.

Qeyd olunub ki, akademik Cəlal Əliyevin 90 illik yubileyi ilə bağlı Kənd Təsərrüfatı Nazirliyində də xüsusi tədbirlər planı hazırlanıb. Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU), Əkinçilik Elmi-Tədqiqat İnstitutunda silsilə tədbirlər keçirilib. ADAU-da görkəmli akademikin adını daşıyan bitki fiziologiyası laboratoriyası yaradılıb. Görkəmli alimin 90 illik yubileyinə həsr edilmiş elmi əsərlər məcmuəsi nəşr olunub. Nazirliyin "Aqrar elm" jurnalının və "Kənd həyatı" qəzetinin bir buraxılışı akademik Cəlal Əliyevin elmi və ictimai-siyasi fəaliyyətinə həsr edilib.

AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov alimin keçdiyi həyat yolundan, elmi təşkilatçı kimi fəaliyyətindən danışıb. Bildirib ki, onun elmi fəaliyyəti əsasən ölkəmizin ərzaq təhlükəsizliyi üçün vacib olan sahələrin tədqiqinə yönəlib, alimin dərin nəzəri bilikləri və ideyaları nəticəsində yeni buğda sortlarının yaradılmasına nail olunub. Ömrünün altmış ildən çoxunu Azərbaycan elminin inkişafına həsr edən, yüzə yaxın elmi kadrlar hazırlamış görkəmli alim Cəlal Əliyev 600-dən çox elmi əsərin müəllifidir. Hələ ötən əsrin 70-ci illərində akademik Cəlal Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə bioinformatika məktəbinin əsası qoyulub. Hazırda alimin fotosintezlə bağlı əldə etdiyi elmi nəticələr dünyanın bir çox ölkələrində uğurla tətbiq olunur.

AMEA-nın vitse-prezidenti, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru akademik İradə Hüseynova akademik Cəlal Əliyevin həyatı və elmi fəaliyyəti haqqında danışıb. Diqqətə çatdırıb ki, Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin, o cümlədən molekulyar biologiyanın, molekulyar genetikanın, gen və hüceyrə biotexnologiyasının əsası keçən əsrin 70-ci illərində akademik Cəlal Əliyev tərəfindən qoyulub və əsaslı şəkildə inkişaf etdirilib. Bütün tədqiqatlarını multidissiplinar istiqamətlərdə aparan alim biologiya elmində riyaziyyatın tətbiqinə böyük diqqət yetirib. Bu gün də həmin işlərin nəticələri öz bəhrəsini verir. Həyatını fotosintez prosesinin sirlərinin öyrənilməsinə həsr edən alim bu mürəkkəb və unikal prosesi öyrənməklə dünya elminə mühüm yeniliklər gətirib.

Cəlal Əliyev öz elmi fəaliyyətini kənd təsərrüfatı bitkilərinin, əsas ərzaq bitkisi kimi buğdanın fotosintetik məhsuldarlığının nəzəri əsaslarının öyrənilməsinə həsr edib. Azərbaycan elmi tarixində ilk dəfə yer üzərində həyatın əsasını təşkil edən fotosintez prosesinin əsaslı şəkildə öyrənilməsinə ciddi maraq göstərib və bu sahə onun elmi yaradıcılığının fundamental tədqiqat obyektinə çevrilib. Fotosintez prosesinin müxtəlif tədqiqat istiqamətlərinin inteqrasiyası hesabına "yaxşı" fotosintez haqqında təsəvvür yaradıb, kənd təsərrüfatı bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə edilməsi üçün prosesin optimallaşdırılması məsələlərini araşdırıb. O, tarla şəraitində yetişdirilən kontrast buğda və soya genotipləri ilə aparılan 40 illik təcrübələrlə sübut edib ki, fototənəffüs təkamülün gedişində formalaşmış həyati əhəmiyyətli metabolik proseslərdən biridir və bitkilərin məhsuldarlığını artırmaq məqsədilə müxtəlif yollarla fototənəffüsü azaltmaq cəhdləri əsassızdır. Cəlal Əliyevin fototənəffüs prosesi ilə bağlı əldə etdiyi bu qlobal nəticə dünya elminin tarixinə qızıl hərflərlə yazılacaq.

Qeyd edilib ki, alimin yaratdığı dünya səviyyəli müasir elmi məktəbin yetirmələri bu gün də Azərbaycanda və dünyanın ən nüfuzlu elmi mərkəzlərində tədqiqatlar aparırlar. Onun fotosintezlə bağlı əldə etdiyi elmi nəticələr dünyanın bir çox ölkələrində uğurla tətbiq olunur. Azərbaycan elminin dünyada tanınmasında, təbliğində və beynəlxalq elmi təşkilatlarla əlaqələr qurulmasında bu böyük alimin misilsiz xidmətləri olub.

Konfransda Beynəlxalq Fotosintez Cəmiyyətinin katibi, professor Julian Eaton-Rye "Akademik Cəlal Əliyevin dünya fotosintez elminə verdiyi töhfələr" mövzusunda məruzə ilə çıxış edib. Professor məruzəsində görkəmli alim Cəlal Əliyevin Azərbaycanda biologiya elminin bir sıra yeni istiqamətlərinin müəyyənləşdirilməsində və onun aktual problemlərinin həllində, bütövlükdə aqrar elmin inkişafında, buğdanın məhsuldarlığının əsası kimi fotosintez prosesinin kompleks tədqiqində rolundan bəhs edib.

Sonra Beynəlxalq Fotosintez Cəmiyyətinin təsis etdiyi akademik Cəlal Əliyev adına mükafatın təqdimatı olub.

Konfransda AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli, akademiklər Teymur Bünyadov, Yaqub Mahmudov, Asəf Hacıyev, Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, ekologiya və təbii sərvətlər nazirinin müavini, AMEA-nın müxbir üzvü Novruz Quliyev, Milli Məclisin komitə sədri Eldar İbrahimov və digər çıxış edənlər Cəlal Əliyevin yüksək mənəvi keyfiyyətlərindən, ictimai-siyasi fəaliyyətindən, alimin biologiya elminin inkişafına verdiyi töhfələrdən, kənd təsərrüfatı bitkilərinin, əsasən buğdanın fotosintetik məhsuldarlığının nəzəri əsaslarının öyrənilməsində, fotosintez və fototənəffüs proseslərinin kompleks tədqiqində göstərdiyi xidmətlərindən danışıb, onunla bağlı xatirələrini bölüşüblər. Vurğulanıb ki, akademik Cəlal Əliyev ciddi və tələbkar müəllim olmaqla yanaşı, hər zaman yetirmələrinə qayğı ilə yanaşıb, səmimi tələbə-müəllim münasibəti yaradıb. Ömrünü elmə, təhsilə həsr edən Cəlal Əliyev unikal şəxsiyyət olaraq şərəfli, vicdanlı, məsuliyyətli müəllim adını daim uca tutub. Onun məktəbinin davamçıları hazırda Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Ukrayna, Koreya və digər ölkələrin nüfuzlu universitetlərində uğurla fəaliyyət göstərirlər. Alimin zəngin elmi fəaliyyəti hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycan Respublikası Prezidentinin "Fəxri diplomu"na layiq görülüb, "İstiqlal" və "Şərəf" ordenləri ilə təltif edilib.

Əməkdar memar Rasim Əliyev ailə üzvləri adından çıxış edərək konfransın təşkilinə görə AMEA rəhbərliyinə, həmçinin tədbir iştirakçılarına təşəkkürünü bildirib.

Sonda akademik Cəlal Əliyevə həsr olunmuş sənədli film nümayiş etdirilib.

# Bakıda II Avrasiya Hüquq Qurultayı işə başlayıb



Dekabrın 17-də Bakıda II Avrasiya Hüquq Qurultayı işə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə 40 ölkədən 250 nümayəndə iştirak edir.

Türkiyə Hüquq Platformasının sədri Ahmet Akcan Türkiyə ilə Azərbaycan arasında hüquq sahəsində əlaqələrin inkişaf səviyyəsinin məmnunluq doğurduğunu bildirib. Qeyd edib ki, 2014-cü ildə Türkiyə-Azərbaycan hüquq platformasının yaradılması iki ölkə arasındakı yaxşı əlaqələrin nəticəsidir.

I Avrasiya Hüquq Qurultayının 2014-cü ildə Bosniya-Herseqovinanın paytaxtı Sarayevoda keçirildiyini xatırladan Ahmet Akcan bildirib ki, həmin tədbir çərçivəsində birlikdə yaşamaq mədəniyyəti mövzusu haqqında müzakirələr aparılıb. O, bu il Bakıda "beynəlxalq ədalət üçün beynəlxalq hüquq" mövzusunda keçirilən II Avrasiya Hüquq Qurultayında insanlığa qarşı cinayətlərlə, terrorizmlə mübarizə kimi məsələlərin müzakirə ediləcəyini deyib.

Ədliyyə nazirinin müavini Azər Cəfərov çıxışında qurultayın əhəmiyyətindən bəhs edərək deyib: "Avrasiya Hüquq Qurultayı məhz Azərbaycan Xalq Cümhuriyyətinin, həmçinin Azərbaycan ədliyyə sisteminin qurulmasının 100 illiyinin qeyd olunduğu bir zamana təsadüf edir". Türkiyə-Azərbaycan əlaqələrinin bütün sahələrdə inkişaf etdiyini qeyd edən nazir müavini bildirib ki, Sovet İttifaqı dövründə Azərbaycanda hüquq sistemində qanunun aliliyi təmin olunmurdu və hüquqları təmin edən müstəqil məhkəmə hakimiyyəti mövcud deyildi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə demokratik cəmiyyətə xas Məhkəmə-Hüquq Şurası, məhkəmə-hüquq sistemi yaradılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilib. Qanunvericilik əsaslı surətdə yenilənib, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilib, müvafiq infrastruktur konseptual baxımdan müasirləşdirilib. Bu gün də davamlı xarakter daşıyan məhkəmə islahatları Avropa Şurası, Avropa İttifaqı, Dünya Bankı və digər mötəbər beynəlxalq təşkilatlar tərəfindən təqdir olunur. Hakimlərin seçimində tətbiq edilən prosedurlar Avropa Şurası tərəfindən digər dövlətlərə tövsiyə edilir.

A.Cəfərov diqqətə çatdırıb ki, beynəlxalq təşkilatların fəaliyyətində bəzən beynəlxalq hüquq prinsiplərinin gözlənilməməsinə, pozulan insan hüquqlarının bərpasının sonadək nail olunmamasına, ikili standartların tətbiqinə rast gəlinir. "Məsələn, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılması açıq şəkildə tələb olunur. Lakin işğalçı ölkə bu qətnamələrin tələblərinin yerinə yetirilməsinə məcbur edilmir. Buna oxşar sənədlər Avropa Şurası, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar tərəfindən də qəbul edilib", - deyə nazir müavini söyləyib.

Beynəlxalq Hüquqşünaslar Birliyinin sədri vəkil Necati Ceylan deyib ki, bu qurultay Avrasiya və islam ölkələri ilə bağlı günümüzün əsas mövzusunu əhatə edir. Beynəlxalq Hüquqşünaslar Birliyi barədə məlumat verən sədr deyib ki, bu təsisat 40 ölkədən yüzlərlə hüquqşünası birləşdirən, dünyada hüququn, insan haqlarının və ədalətin bərqərar olmasına töhfə verən qeyri-hökumət təşkilatıdır. Təşkilat dünyada ədalətin, hüququn, bəşəri dəyərlərin qorunması istiqamətində fəaliyyət göstərir. Dünyada ədalətsizliklərin olduğunu təəssüflə qeyd edən Necati Ceylan bildirib ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox insan evsiz-eşiksiz qalsa da, bu ədalətsizliyə beynəlxalq birlik tərəfindən hələ də lazımi qiymət verilmir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, Azərbaycan Hüquqşünaslar Konfederasiyasının sədri Əli Hüseynli bildirib ki, ölkəmiz Cənubi Qafqaz regionunun ən inkişaf etmiş, güclü dövlətidir. Eyni zamanda, Azərbaycan Avrasiya bölgəsində həyata keçirilən iqtisadi, siyasi, mədəni əlaqələrdə həm də vasitəçi rol oynayır. Bu, Prezident İlham Əliyevin son illərdə həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir. Əgər ölkələrdə qanunun aliliyi təmin olunmasa, ədalət mühakiməsi həyata keçirilməsə, siyasi, mədəni və iqtisadi inkişaf da olmaz.

"Azərbaycan torpaqlarının 27 ildir işğal altında qalması ən böyük ədalətsizlikdir", - deyən Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmaması, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün şəraitində yaşaması beynəlxalq hüquqa ziddir.

Türkiyə Böyük Millət Məclisinin deputatı Cahid Özkan bu tədbirin bölgənin hüquq və məhkəmə sisteminin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Bildirilib ki, müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyev qısa vaxtda ölkədə ədaləti, iqtisadi inkişafı, sabitliyi təmin edərək Azərbaycanı dünyanın qibtə etdiyi bir dövlətə çevirib.

Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov bu tədbirin bütövlükdə region üçün böyük bir hadisə olduğunu deyib. O bildirib ki, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası öz beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində çoxşaxəli fəaliyyət həyata keçirməkdədir. Qurultayın əsas məqsədlərindən biri də məhz eyni coğrafiyada yaşayan, ortaq mədəni və tarixi dəyərləri olan cəmiyyətlərin bir-birinə həm ictimai, həm də dövlətlər səviyyəsində yaxınlaşdırılmasıdır.

Türkiyə ədliyyə nazirinin müavini Yıldız Səfərinoğlu qeyd edib ki, qurultay fərqli coğrafiyalarda yaşayan, bənzər problemlərə məruz qalan, onları həll etmək üçün çalışan hüquqşünasların bir araya gəlməsi, fikir mübadiləsi aparması baxımından böyük əhəmiyyətə malikdir. Türkiyə-Azərbaycan əlaqələrinin hər zaman yüksək səviyyədə olduğunu deyən Türkiyə ədliyyə nazirinin müavini regionda sülhün və təhlükəsizliyin təmin olunmasında ölkələrimizin həmrəyliyinin xüsusi rol oynadığını vurğulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Çingiz Əsgərov Ermənistanın işğalçılıq siyasəti nəticəsində qaçqın və məcburi köçkün düşmüş, əsir və girov götürülmüş azərbaycanlıların pozulmuş hüquqlarından danışıb.

Qurultay işini panel müzakirələrlə davam etdirib.

# Rusiya-Azərbaycan: *iqtisadi maneələri aradan qaldırarkən...*

Biznes onun üçün dövlət tərəfindən şəraitin yaradıldığı yerdə daha yaxşı inkişaf edir. Bu başlıca prinsip iki ölkənin səylərinin ikiqat nəticə verdiyi dövlətlərarası iqtisadi əməkdaşlıq səviyyəsində isə lap yaxşı işləyir. Bu sözləri AZƏRTAC-ın müxbirinə müsahibəsində Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev deyib.

**- Bu günlərdə Moskvada Rusiya ilə Azərbaycan arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın sayca 17-ci iclası keçirilib. Dmitri İvanoviç, siz bu strukturun əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Xatırladım ki, komissiya artıq iyirmi ildən çoxdur - 1996-cı ildən fəaliyyət göstərir. Bu müddət ərzində ölkələrimizin qarşılıqlı əmtəə dövriyyəsinin səviyyəsini müqayisə etsək, nə qədər uzun yol qət edildiyinin, nə qədər böyük işlər görüldüyünün şahidi olarıq. Şəksiz ki, Azərbaycan dünyada sahibkarlıq ruhunun çox güclü olduğu ölkələrdən biridir. Azərbaycanlı tərəfdaşlarla işləmək Rusiya biznesinə həmişə rahat olub. Ticari-iqtisadi əməkdaşlığın səmərəliliyi və bunun üçün əlverişli şəraitin yaradılması bir çox baxımdan Hökumətlərarası Komissiyanın xidmətidir, axı o, iqtisadi inkişafın ən qarşılıqlı faydalı sahələrinin potensialını üzə çıxarır və bu yoldakı maneələri aradan qaldırır. Təbii ki, ölkələrimizin münasibətlərinin, o cümlədən iqtisadi münasibətlərinin inkişafının baza vektorunun təməli prezidentlər səviyyəsində qoyulur. Rusiya Prezidenti Vladimir Putin və Azərbaycan Prezidenti İlham Əliyev bu ilin sentyabrında Soçidə görüşəndə bir sıra sənədlər imzalayıblar. Bu sənədlərdən biri Rusiya-Azərbaycan iqtisadi əməkdaşlığının prioritet istiqamətləri haqqında Birgə Bəyanatdır. Bu sənəd əsasında beş yol xəritəsi işlənib hazırlanıb. Həmin xəritələrdə ticarət, nəqliyyat, büdcə-vergi sektorunun rəqəmsallaşdırılması və müştərək müəssisələrin yaradılması, habelə humanitar əməkdaşlıq sahələrində ölkələrimizin qarşılıqlı fəaliyyəti ətraflı şərh edilib.

**- Bu istiqamətlərin hər biri barədə ümumi məlumat verə bilərsinizmi?**

- Ölkələrimizin başçılarının qarşıya qoyduqları əsas vəzifələrdən biri kənd təsərrüfatı məhsulları ticarətini genişləndirməkdir. Görülən tədbirlər nəticəsində Azərbaycanın 20-dən çox müəssisəsi Rusiyaya maneəsiz ət və süd məhsulları ixrac etmək hüququ qazanıb. 2018-ci ilin birinci yarısında Azərbaycandan Rusiyaya meyvə idxalı 70,6 faiz, tərəvəz idxalı 10,3 faiz artıb. İstixana təsərrüfatlarının tikintisi və istismarında ixtisaslaşan Azərbaycan mütəxəssisləri Nevinnomıssk şəhərində istixana şəraitində tərəvəz yetişdirilməsi üzrə birgə layihə həyata keçirirlər. Qarşılıqlı təchizatların həcmi də artır. Təkcə Stavropol diyarı hər il Azərbaycana bir milyon tondan çox taxıl satır. Rusiya bazarı Azərbaycan malları mağazalarının açılmasına hazırdır. Gələn il Moskvada iki Azərbaycan şərab evinin, daha sonra belə şərab evlərinin Yekaterinburq və Sankt-Peterburqda açılışı planlaşdırılır.

Energetika sahəsində "Rosneft" və SOCAR şirkətləri Xəzər dənizinin Azərbaycan sektorunun dibinin - "Qoşadaş" yatağının və Abşeron yarımadasında dənizin dayaz sulu hissəsinin şimalındakı yataqların neft və qaz potensialının birgə öyrənilməsi barədə saziş imzalayıblar. "Yaşma-Dərbənd" ikinci dövlətlərarası elektrik ötürücü xəttinin tikintisi planlaşdırılıb ki, bu da Rusiya ilə Azərbaycanın enerji təhlükəsizliyinə öz töhfəsini verməlidir.

Nəqliyyat sahəsində "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə xüsusi diqqət yetiriləcək. Bu dəhliz nəinki Rusiya ilə Azərbaycanın tranzit imkanlarını xeyli artıracaq, həm də ticari-iqtisadi əlaqələri genişləndirəcək. Hazırda nəqliyyat dəhlizinin ayrı-ayrı hissələrində işlər aparılır. Məsələn, gələn il sərhəddəki Samur çayı üzərindən birgə körpünün inşasını başa çatdırmaq, habelə "Yaraq-Qazmalar" sərhəd məntəqəsinin buraxılış qabiliyyətini artırmaq üçün onu yenidən qurmaq nəzərdə tutulur.

**- Şübhəsiz, Hökumətlərarası Komissiyanın iclasında birgə sənaye müəssisələrinin yaradılması məsələləri də müzakirə olunub?**

- Şübhəsiz. Azərbaycan öz neft emalı və neft-kimya sahələrini maksimum qazanclı etmək üçün son vaxtlar qazdan gübrə, neftdən neft-kimya məhsulları, polipropilen və polietilen hazırlanması üzrə iri layihələr həyata keçirir. Ölkələrimizin bu sahədə də birgə nailiyyətləri var: Pirallahı Sənaye Parkında Rusiya-Azərbaycan müştərək əczaçılıq şirkəti müvəffəqiyyətlə fəaliyyət göstərir. Gələn il şirkət əczaçılıq zavodunda qablaşdırma xəttini işə salacaq. Artıq SOCAR ilə müştərək "Polymer" layihəsinin həyata keçirildiyi Sumqayıt Kimya Sənaye Parkı ərazisində polipropilen qurğusu işləyir, yüksək təzyiqli polietilen qurğusu isə işə salınmağa hazır vəziyyətdədir.

Gəncə avtomobil zavodunda artıq bir neçə ildir KamAZ və "Ural" yük maşınları yığılır. Hacıqabul Sənaye Məhəlləsində də bu cür yığma istehsalatı yaradılacaq, amma Azərbaycanın özünün avtomobil zavodunun inşa olunması perspektivi ilə bu dəfə aztonnajlı QAZ avtomobilləri yığılacaq. Bundan əlavə, neft-qaz sahəsinə, habelə kənd təsərrüfatı texnikası və dəmir yolu vaqonları üçün avadanlıq istehsalına dair planlar var.

**- Bəs geniş oxucu auditoriyasına aydın olmayan "büdcə-vergi sahəsinin rəqəmsallaşdırılması" termininin arxasında nə gizlənir?**

- Həqiqətən, rəqəmsallaşdırmanı izah etmək bir o qədər də asan məsələ deyildir, amma bu sahədə birgə layihələr elektron fakturaların və əlavə xərclərin tətbiqindən tutmuş vergi borcunun ödənilməsi və hüquqi şəxslərin dövlət elektron qeydiyyatı üzrə təcrübə mübadiləsinə qədər əməkdaşlığın bir çox istiqamətlərində sənəd dövriyyəsini sinxronlaşdırmaqda Rusiya və Azərbaycana kömək edəcək. Bütün bunlar ölkələrimizin daha operativ qərar qəbul etmələrinə və informasiya mübadiləsi aparmalarına imkan verəcək. Bu da müasir dinamik dünyada çox əhəmiyyətlidir, çünki dövlət idarəçiliyi sahəsində innovativ yanaşmaların tətbiqi zamanın hökmüdür.

**- Humanitar sahədə Rusiya-Azərbaycan əməkdaşlığı birgə turizm biznesinin inkişafına iqtisadi baxımdan necə təsir göstərir?**

- Bu ilin doqquz ayında Azərbaycana gələn rusiyalı turistlərin sayı 2017-ci ilin oxşar dövrü ilə müqayisədə 20 faiz artıb, ilin sonunda isə ölkələrimiz arasında turizm axını təqribən 2 milyon nəfərə çatacaq. Azərbaycan Yessentuki şəhərində "İstoçnik" sanatoriya-turizm mərkəzinin, habelə Jeleznovodsk və Kislovodskda sanatoriya-mehmanxana komplekslərinin tikintisinə xeyli vəsait yatırır, çünki azərbaycanlı turistlər adətən Qafqaz Mineral Suları kurortlarında istirahət etməyi çox sevirlər.

Ancaq humanitar sahə bir çox digər məsələləri, məsələn, miqrasiya sahəsində əməkdaşlığı, gələcəkdə Azərbaycanda Rusiya institutlarının filiallarının açılmasını da nəzərdə tutur. Hələ Rusiyanın ali məktəblərində 11 mindən çox azərbaycanlı tələbənin təhsil aldığını demirəm. Hətta mədəni mübadilə və ya sərgi fəaliyyəti kimi istiqamətlər də iqtisadiyyatla sıx bağlıdır. Məsələn, bir il əvvəl Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyi açılıb, bu ilin mayında Həştərxanda Azərbaycan Biznes Mərkəzinin açılışı olub. Ümumrusiya Sərgi Mərkəzində Azərbaycan pavilyonunun yenidən qurulması tam sürətlə gedir. Bütün bunlar ölkələrimizin vətəndaşlarının bir-birini daha yaxından tanımalarına imkan verir, Rusiya-Azərbaycan iqtisadi əlaqələrinin möhkəmlənməsinə xidmət edir.

**- Hökumətlərarası Komissiyanın iclasında Rusiya-Azərbaycan iqtisadi əməkdaşlığının yekunlarına dair hansı məsələlər müzakirə edilib?**

- Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin vurğulayıb ki, 2018-ci ildə Rusiya-Azərbaycan əməkdaşlığı yüksəliş dövrü yaşayıb. Bütün əsas istiqamətlərdə çox mühüm addımlar atılıb və ticari-iqtisadi münasibətlərin inkişafı üçün zəmin yaradılıb. Görülən işlərin nəticələrini konkret rəqəmlər göstərir: 2017-ci ildə Rusiya ilə Azərbaycan arasında mal dövriyyəsi təqribən 35 faiz artaraq 2,5 milyard dollara çatıb, 2018-ci ilin on ayının yekunlarına görə isə 1,99 milyard dollar təşkil edib ki, bu da ötən ilin analoji dövrünün göstəricisi ilə müqayisədə 20 faizdən çoxdur. Dinamika idxal və ixrac üzrə müəyyən olunur. Bu isə o deməkdir ki, münasibətlərimiz qarşılıqlı faydalıdır. Perspektivdə Rusiya və Azərbaycan əmtəə dövriyyəsinin 10 milyard dollara qədər artmasına nail olmaq niyyətindədirlər.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev qeyd edib ki, Azərbaycan Rusiya iqtisadiyyatına bir milyard dollardan çox, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4,2 milyard dollardan çox sərmayə yatırıblar. Rusiyanın investisiyaları, ilk növbədə, aqrar sahəyə yönəldilib, çünki nəhəng Rusiya bazarı Azərbaycandan çox böyük həcmdə kənd təsərrüfatı məhsulları qəbul edə bilər. Azərbaycanın sərmayələri isə əsas etibarilə Rusiya ərazisində daşınmaz əmlak və ticarətə istiqamətlənib.

Hökumətlərarası Komissiyanın iclasının yekunlarına əsasən protokol imzalanıb. Sənəddə komissiyanın gələcək fəaliyyətinin istiqamətləri müəyyən olunub, humanitar sahədə, habelə ticarət, nəqliyyat, sənaye, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları sahələrində əməkdaşlığı genişləndirmək nəzərdə tutulub.



REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI
III DÖVLƏT PROQRAMI



## İlə yekun vurulur

Bu il də Yardımlı inkişaf edib və daha abad olub. Rayon mərkəzində, eləcə də ayrı-ayrı yaşayış məntəqələrində görülən işlər bu dağ rayonunun simasına sığal çəkib. 2004-cü ilin əvvəlindən başlanan tikinti-quruculuq işləri, bir-birinin ardınca həyata keçirilən layihələr, o cümlədən Masallı-Yardımlı yolunun əsaslı şəkildə yenidən qurulması, təbii qaz xəttinin çəkilməsi, elektrik enerjisi ilə təchizatdakı problemlərin həlli, yeni tədris, səhiyyə və mədəniyyət ocaqlarının inşası və s. bu yerlərin simasını büsbütün dəyişib.



# Olimpiya idman kompleksi, kəndlərarası yeni yol, dağ çayı üzərində müasir körpü...

## Yardımlıda cari ilin təzə ünvanları təkcə bunlar deyil

Üstəlik rayon mərkəzinə şəhər statusu verilib, əhalinin işlə təminatı, güzəranı yaxşılaşıb. Hazırda isə Yardımlı şəhərində su-kanalizasiya sisteminin çəkilişi sona yetmək üzrədir.

Dağ rayonunda həyata keçirilən tikinti-quruculuq, abadlıq işləri sadaladıqlarımızla məhdudlaşmır. Görülən işlərin miqyası genişdir və həmin işlər bu gün də davam edir. Olimpiya idman kompleksi onlardan biridir. Sifarişçisi İdman və Gənclər Nazirliyi, podratçısı "Unistone" MMC olan obyektin tikintisində xeyli işlər görülmüşdür. İş icraçısı İnqilab Sadıqlı deyir ki, kompleksdə mini futbol, voleybol, basketbol meydançaları, tennis kortu, boks, güləş zalları, duş, məşq otaqları, yeməkxana, 100 nəfərlik konfrans zalı, elektrik yarımstansiyası, su anbarı, qazanxana və s. olacaq. Tikinti başa çatdıqdan sonra burada onlarla, yüzlərlə gənc idmanın müxtəlif növləri ilə məşğul olacaq, asudə vaxtlarını səmərəli keçirəcək. Kim bilir, bəlkə də onların sırasından elə idmançılar çıxacaq ki, dövlətimizin himnini mötəbər yarışlarda səsləndirəcək, bayrağımızı yüksəklərə qaldıracaq.

Yol inkişafdır, rahatlıqdır, mədəniyyətdir. Yardımlıda bu sahədə də çox işlər görülüb. İndi daha qısa yolla rayonun qərb və şərq istiqamətlərindəki yaşayış məntəqələrindən Cəlilabada, oradan isə Bakıya, Sumqayıta, habelə respublikamızın digər bölgələrinə gedib-gəlmək asanlaşmışdır. Bu yol, eyni zamanda Cəlilabadın həmin istiqamətlərdə yerləşən kənd camaatı üçün də çox əlverişlidir.

15 yaşayış məntəqəsini birləşdirən 22 kilometrlik Yardımlı-Bozayran (Osnəkəran) - Bürzünbül (Binə) - Vərgəduz-Sırıq avtomobil yolunun çəkilişi başa çatmaq üzrədir. Bu yol 20 min nəfəri rahatlığa çıxaracaq. "Niva"ya oturub yolun istifadəyə verilən hissəsi - dağ yolu ilə hündürlüyə qalxırıq. Ayrı-ayrı məsafələrdə qreyderlər yolun cinahlarına boşaldılan qum-çınqılı hamarlayır. Asfalt yolla irəlilədikcə rayonun dağ yamaclarında lövbər atmış kəndlərindəki yeni, müasir binalar ağ-qırmızı zanbaq çiçəklərini xatırladır. Rayon icra hakimiyyətinin məsul işçisi Ceyhun Verdiyev deyir ki, bu ərazilərdə heç vaxt asfalt yol olmayıb. Xüsusilə qış aylarında əhali olmazın əziyyətini çəkib.

Təzə salınan asfalt yolun kənarı ilə boru xətti uzanıb gedir. Yol yoldaşımdan: "Yəqin, bu da qaz xətləridir?" - deyə soruşuram. "Bəli, qaz xətləridir. Bu kəndlərin əhalisi işıq, təbii qaz sarıdan heç bir problem yaşamır. Çətinlikləri yol sarıdan idi, gördüyünüz kimi, o da həll olunur", - deyir.

Dağlardan enib aşağı düşəndə Viləş çayının üstündə körpü tikildiyini gördük. İnşaatçılar ən gur, sürətli çay suyuna davam gətirə biləcək körpünün tikintisində əsas işləri başa çatdırmışlar.

***Seyran CAVADOV, "Azərbaycan"***





# SES-in üstünlükləri çoxdur

## Bunu İsmayıllı rayonunun timsalında görmək mümkündür

İşıq olan yerdə həyat da var. Hələ ilk yaranışdan insan övladı həmişə işıq gələn səmtə yön alıb. Çünki harada işıq varsa, orada həyat, nəfəs olub. Bu baxımdan ölkəmizdə həyata keçirilən infrastruktur layihələri arasında elektrik enerjisi sahəsinə məxsusi diqqət və qayğı göstərilir. Bunun nəticələri isə bütün bölgələrimizdə hiss olunur.






Dağlıq Şirvan iqtisadi rayonuna daxil olan İsmayıllı rayonunda da energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchizatı əsas məsələlərdəndir. Rayon elektrik şəbəkəsinin xidməti ərazisindəki abonentlərin sayı 23,4 min nəfərdən çoxdur. Onlardan 2 mindən çoxu qeyri-əhali, qalanı əhali qrupuna aiddir. Şəbəkənin rəisi Şahin Muradov deyir ki, xidməti ərazidə son 3 ildə geniş miqyasda yenidənqurma və bərpa işləri aparılıb. Bu hesaba kəndlərin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, turizm və kənd təsərrüfatı obyektlərinin elektrik enerjisinə artan tələbatının ödənilməsinə əlavə imkanlar yaranıb. Əvvəlki illərdə rayonda xeyli elektrik verilişi hava xətləri çəkilib. Üç kəndin elektrik şəbəkəsi isə izolyasiyalı naqillərlə əvəzlənib və hazırda bu işlər digər kəndlərdə davam etdirilir. Bütün bunların sayəsində şəbəkənin gücü artıb, texniki itkilər xeyli azalıb.

Cari ilin əlamətdar hadisələrindən biri də Prezident İlham Əliyevin avqustun 25-də İsmayıllıya səfəri zamanı yenidən qurulan 110/35/10 kilovoltluq "İsmayıllı" yarımstansiyasının işə salınmasıdır. Bu yarımstansiya istismar müddətini başa vurduğundan müasir üslubda tamamilə yenidən qurulub. Onun vasitəsilə İsmayıllı şəhərinin və ətraf 14 yaşayış məntəqəsinin, Basqal və İvanovka hava xətlərinin üzərində olan 35/10 kilovoltluq "Girdimançay", "Zərgəran", "Yeni Basqal" və "İvanovka" yarımstansiyalarının elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Ümumiyyətlə, 22,1 min abonent elektrik enerjisi ilə "İsmayıllı" yarımstansiyası hesabına təmin edilir.

Rayonun elektrik enerjisi təchizatını daha da yaxşılaşdırmaq üçün digər tədbirlər də icra olunur. Bu sırada Topçu, Buynuz, Sumağallı, Çayqovuşan, İstisu və Qalacıq kəndlərinin, o cümlədən ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, kənd təsərrüfatının inkişafı ilə bağlı yaradılan obyektlərin elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün "Topçu" yarımstansiyasının inşasını misal çəkmək olar. Yarımstansiya vasitəsilə təxminən 1200 abonent işıqlığa çıxıb. Bundan əlavə, Basqal qəsəbəsinin və ətraf kəndlərin elektrik təchizatının yaxşılaşdırılması üçün "Yeni Basqal" yarımstansiyası inşa edilib. Eyni zamanda yarımstansiyanı qidalandıran hava xəttinin 2,3 kilometrlik hissəsi əsaslı təmir olunub, 5,5 kilometrlik hissəsi yeni çəkilib. Lahıc qəsəbəsində də elektrik şəbəkələrinin yenidən qurulması işləri başa catmaq üzrədir. Paralel olaraq Kürdmaşı, Aşıqbayramlı, Hapıtlı kəndlərində yenidənqurma işləri aparılır.

İsmayıllıda mövcud potensialdan səmərəli istifadə etməklə yeni generasiya güclərinin yaradılmasına da diqqət verilir. İndiyədək 2013-cü və 2016-cı illərdə Sumağallı kəndi yaxınlığında "İsmayıllı-1" və "İsmayıllı-2" su elektrik stansiyaları istismara verilmişdir. Bu stansiyalar alternativ enerji mənbələrindən səmərəli istifadə edilməsi proqramı çərçivəsində inşa olunmuşdur.

İlk istismara verilən "İsmayıllı-1" stansiyasında 10 və 0,4 kilovoltluq yarımstansiya inşa edilib. Stansiyadan çıxan təmizlənmiş su sonra istismara verilən "İsmayıllı-2" stansiyasına daxil olur. Bununla ümumi gücü 3200 kilovat olan kiçik su elektrik stansiyaları silsiləsi yaranıb. Bu layihə olduqca səmərəli və əhəmiyyətlidir. Belə ki, İsmayıllı rayonunun Sumağallı kəndi yaxınlığında inşa edilən derivasiya tipli su elektrik stansiyası ildə 8 milyon kilovat-saat ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsal etmək imkanına malikdir. "İsmayıllı-1" və "İsmayıllı-2" stansiyalarının mühəndisi Tofiq İsmayılov deyir ki, indiyədək hər iki stansiya üzrə ümumilikdə 12 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub. Çayda suyun həcmi çoxalarsa, bu həcmi artırmaq mümkündür. Normal iş rejimində isə rayonun elektrik enerjisinə olan tələbatının 30-35 faizini bu stansiyalar vasitəsilə ödəmək mümkündür.

Yeri gəlmişkən qeyd edək ki, ümumilikdə İsmayıllının elektrik enerjisinə olan tələbatı 12 meqavatdır. Bu baxımdan Girdiman çayı üzərində tikintisi nəzərdə tutulan 10 meqavat gücündə su elektrik stansiyası layihəsinin reallaşması nəinki İsmayıllının, eyni zamanda ətraf rayonların da enerji təchizatında keyfiyyət dəyişikliyinə təkan verə bilər.

***Əli SƏLİMOV, "Azərbaycan"***

# Torpaq da, texnika da diqqət və qayğı sevir

Məlum olduğu kimi, bu gün ölkəmizdə qeyri-neft sektorunun inkişafı xüsusi diqqət mərkəzindədir. Bu sırada isə kənd təsərrüfatı prioritet istiqamət olaraq seçilir. Aqrar sektorda yüksək məhsuldarlığa nail olmaq üçün bir sıra mühüm tədbirlər həyata keçirilir. Son dövrlər bu məsələyə daha çox diqqət yetirilir. Başqa sözlə, istehsalı əkin sahələrinin hesabına yox, məhsuldarlıq hesabına artırmaq günün tələbi kimi qəbul edilir. Buna nail olmağın bir yolu isə aqrar sektorun texniki təminatının gücləndirilməsi və mineral gübrələrlə təchizatın daha da yüksəldilməsidir.




Dağlıq, dağətəyi və düzən ərazilərlə əhatə olunan Ağsuda da kənd təsərrüfatında genişmiqyaslı islahatlar aparılır. Rayonda meyvə və tərəvəzçiliklə paralel olaraq bitkiçilik inkişaf edir. Eyni zamanda ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi unudulmur.

"Aqrolizinq" ASC-nin Qobustan regional nümayəndəliyinin Ağsu bölməsinin rəisi Cavid Səmədov deyir ki, rayonda 35 min hektar əkinə yararlı torpaq sahəsi var: "Həmin sahələrin məhsuldarlığının artırılmasında fermerlərlə yanaşı, xidmət təşkilatalarının da üzərinə böyük məsuliyyət düşür. Hazırda bölmənin tabeliyində "Belorus-1221" markalı 27 traktor var. Həmçinin əkin, səpin və tədarük üçün lazım olan bütün texnikalar da mövcuddur. Əlavə olaraq fermerlərə əsasən lizinq yolu ilə alınmış 200-ə yaxın texnika verilib".



Öyrəndik ki, gübrə sarıdan da vəziyyət yaxşıdır. Hazırda anbarda təxminən 900 tondan çox azot gübrəsi var. İndiyədək fermerlərə verilən nitra-ammofoskanın həcmi isə 400 tondan çoxdur. Əlavə olaraq əkinçilərə 280 ton ammofos gübrəsi paylanıb. Bunlardan savayı, kənd təsərrüfatı bitkilərinin zərərverici, xəstəlik və alaq otlarına qarşı kompleks mübarizə tədbirlərini gücləndirmək və əkilmiş əkin sahələrində müxtəlif növ alaq otlarına və yabanı vələmirə qarşı mübarizə aparmaq üçün müxtəlif adda herbisidlər gətirilərək fermerlərə güzəştlə satılıb. Ümumilikdə ilin əvvəlindən alaq otlarına qarşı 600 hektar sahəyə dərman vurulub. Yeri gəlmişkən qeyd edək ki, mineral gübrələrin satış dəyərinin 70 faizi həcmində güzəştin tətbiq olunması təsərrüfatlarda gübrədən istifadəni əhəmiyyətli dərəcədə artırıb.

Ağsu həm də pambıqçılıq rayonudur. Cari il 2600 hektar sahədə pambıq əkən ağsulular sahələrdən normal çıxış almışlar. Dekabrın 4-ə olan məlumata görə, rayon üzrə 1830 ton pambıq tədarük olunmuşdur. Yığımın sürətləndirilməsində "Con Deli" markalı 6 kombaynın rolu əvəzsizdir. Daşınma da yüksək səviyyədə təşkil olunub. Bunun üçün 45 qoşqu lafeti var.

Texnikaların düzgün idarəçiliyinin təmin olunması məqsədilə sürücülər üçün Yevlax rayonundakı Təlim-Tədris Mərkəzində xüsusi kurslar təşkil edilib. Həmin kurslarda mexanizatorlara xarici ölkələrdən gətirilən texnikalardan istifadə və onların istismar qaydaları öyrədilir.

***Əli XASAYOĞLU, "Azərbaycan"***

# Ənənəvi sahə bərpa olunur

## Şəmkirdə üzüm bağları genişləndirilir, şərab istehsalı artır

Üzümçülük şəmkirlilərin dədə-baba peşəsidir. Sovetlər dönəmində burada istehsal edilən şərab məhsullarının sorağı uzaq ölkələrdən gəlirdi. Lakin sovetlər birliyi dağılmamışdan bir neçə il əvvəl digər sahələrdə olduğu kimi, üzümçülükdə də durğunluq yarandı.





Mövcud bağlar məhv edilərək yerində o qədər də səmərəli olmayan digər kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə başlanıldı. Lakin torpağa bağlı insanlar üzümçülüyün faydalı olduğunu gördükdən sonra yenidən bu sahəyə üz tutdular. Dövlət başçısının üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı verdiyi dəstəkdən sonra kənd adamları yeni məhsuldar bağları salmağa başladılar. Xüsusilə ölkə rəhbərinin "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramının icrasının təsdiq edilməsi haqqında" 15 dekabr 2011-ci il tarixli sərəncamından sonra bu iş bir qədər də geniş vüsət aldı.

Şəmkirdə ənənəvi istehsal sahəsi olan üzümçülüyün inkişaf etdirilməsinə ilk qoşulanlardan biri "Şərq ulduzu" MMC oldu. 2006-cı ildə yaradılan müəssisə hazırda 2 min ton üzüm emal etmək gücünə malikdir. Müəssisədə quraşdırılan avadanlıqlar Almaniya və İtaliyadan gətirilmişdir. Bu avadanlıqların köməyi ilə hazırda burada 9 növdə - "Şardane", "Bayan şirə", "Merlot", "Rikasiteli", "Sapiravi", "Kabarne savinyon" və "Şiraz" şərabları istehsal edilir, konyak spirti hazırlanır.

Rayonda bağlar əsasən Fransa, İran və Gürcüstandan gətirilən məhsuldar üzüm sortları hesabına genişləndirilir. Vətəni Orta Asiya olan "Şiraz" üzüm sortu Şəmkirdə daha geniş yayılmışdır. İndi rayonda "Bayan şirə" üzüm sortundan da yeni texnologiyalar əsasında qiymətli şərab istehsal edilir.

Hazırda tikintisi başa çatdırılmaqda olan Şəmkir aqroparkına ayrılmış 604 hektar sahədə tinglik təsərrüfatının yaradılması nəzərdə tutulmuşdur. Bundan başqa burada üzümün saxlanması üçün soyuducu kameralar da yaradılacaqdır. Bu da əhalinin təzə və keyfiyyətli üzümlə, təmin edilməsinə imkan verəcək.





Ayrı-ayrı sakinlərin də üzümçülüyə marağı artır. Son bir neçə ildə rayonun Qasım İsmayılov kəndində Elşən, Azər və Xəzər Mehdiyev qardaşları, Düyərli kəndində Şakir Yunisov, Namiq Abbasov və Mikayıl Alıyev, Şəmkir şəhərində Əsgər Alırzayev, Elxan Əliyev, Müzəffər Məmmədov, Qüdrət Muradov və başqaları üzüm bağlarını genişləndirməklə hər il xeyli qazanc əldə edirlər. Hazırda Qasım İsmayılov və Düyərli kəndlərində sahibkarlar tərəfindən tinglik təsərrüfatları yaradılması istiqamətində iş aparılır. Üzümün uzun müddət saxlanması üçün Düyərli, Dəllər Cəyir, Dəllər qəsəbə, Qılıncbəyli və Keçili kəndlərində saxlama kameraları tikilmişdir. Plantasiyalar genişləndirildikcə, yeni iş yerləri də açılır. Hazırda rayonda üzümçülük sahəsində 479 nəfər çalışır.

Kəndlərdə və həyətyanı sahələrdə də talvar tipli üzüm bağları yaradılır. Təkcə bu il həyətyanı sahələrdəki bağlardan 22176 ton məhsul götürülmüşdür.

Bağları ziyanvericilərdən, eləcə də müxtəlif xəstəliklərdən qorumaq üçün təsərrüfat sahiblərinə hər cür dəstək göstərilir. Bu məqsədlə Dəllər qəsəbəsində 10 min tonluq gübrə bazası yaradılmışdır. Burada üzümçülükdə lazım olan bütün növ gübrə və dərmanlar lizinq yolu ilə təsərrüfat sahiblərinə satılır.

İstehsal olunan məhsulu istehlakçılara vaxtında çatdırmaq üçün "Şəmkir səbəti" yaşıl bazar da istifadəyə verilmişdir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən Sosial mövzuda maarifləndirici tədbirlərin təşkili işlərinin satın alınması məqsədilə 16 noyabr 2018-ci il tarixdə açıq tender metodu ilə keçirilmiş satınalma müsabiqəsinin qalibi "Colorit yaradıcılıq emalatxanası" MMC olmuşdur və fondla təşkilat arasında 42000,0 manat dəyərində satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən Sosial mövzuda televiziya verilişlərinin hazırlanması və yayımlanması xidmətlərinin satın alınması məqsədilə 26 noyabr 2018-ci il tarixdə açıq tender metodu ilə keçirilmiş satınalma müsabiqəsinin qalibi fiziki şəxs Həsənquliyev Amid Umud oğlu olmuşdur və fondla fərdi sahibkar arasında 8320,0 manat dəyərində satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 05.12.2018-ci il tarixdə keçirilmiş 6 LOT üzrə "Bakı Metropoliteni" QSC-nin istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan işlərin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə LOT-1 "Bakı Metropoliteni" QSC-nin "Xətai" stansiyası üçün müxtəlif tip ehtiyat gərginlik qoşucularının və idarəetmə qutularının quraşdırılması işlərinin alınması üzrə "I.M.S. Engineering Ltd" MMC, LOT-2 "Bakı Metropoliteni" QSC-nin "Bakmil" stansiyasının inzibati otaqlarında kondisioner sisteminin quraşdırılması işlərinin alınması üzrə "Form Cond" MMC, LOT-3 "Bakı Metropoliteni" QSC-nin "N.Nərimanov" Elektrik deposunda A-12 yarımstansiya ilə 60.4 kv-luq D-1 alçaldıcı yarımstansiya arasında kabel kollektorunun tikintisi işlərinin alınması üzrə "Kaspian Standart CO" MMC və LOT-6 "Bakı Metropoliteni" QSC-nin "N.Nərimanov" Elektrik deposunun ərazisində "Depo-1" yarımstansiyasında və Avtonəqliyyat kolonunun yük maşınlarının sexində döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi işlərinin alınması üzrə "CMT Group" MMC qalib elan olunmuşlar. Qalib gəlmiş təşkilatlar ilə LOT-1 üzrə "I.M.S. Engineering Ltd" MMC ilə ƏDV daxil 14371,44 (on dörd min üç yüz yetmiş bir manat 44 qəpik) manat, LOT-2 üzrə "Form Cond" MMC ilə ƏDV daxil 73180,89 (yetmiş üç min yüz səksən manat 89 qəpik) manat, LOT-3 üzrə "Kaspian Standart CO" MMC ilə ƏDV daxil 285102,34 (iki yüz səksən beş min yüz iki manat 34 qəpik) manat və LOT-6 üzrə "CMT Group" MMC ilə ƏDV daxil 22061,47 (iyirmi iki min altmış bir manat 47 qəpik) manat məbləğlərində 11.12.2018-ci il tarixində müvafiq satınalma müqavilələri imzalanmışdır.

*Tender komissiyası*

# İrandan Azərbaycana narkotik vasitə keçirmək istəyən şəxslər saxlanılıb

Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində tədbirləri davam etdirir.

DSX-nin Mətbuat Mərkəzindən bildiriblər ki, dekabrın 12-də "Astara" dövlət sərhədindən buraxılış məntəqəsində Azərbaycana gələn İran vətəndaşı, 2002-ci il təvəllüdlü Bargikani Naza Muhammedbaxirin üzərində Xidmətin Sərhəd Nəzarətinin əməkdaşları tərəfindən 320 qram heroin aşkarlanaraq götürülüb. Narkotik vasitənin sifarişçisinin müəyyənləşdirilməsi və saxlanılaraq məsuliyyətə cəlb olunması məqsədilə keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakinləri, 1992-ci il təvəllüdlü Səfərov Kazım Ağəli oğlu və 1994-cü il təvəllüdlü Nəsirov Elyaz Taleh oğlu saxlanılıblar.



Dekabrın 13-də DSX-nin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Beyləqan rayonunun Əhmədli kəndi ərazisindəki sərhəd zastavasının xidməti ərazisində İrandan Azərbaycan istiqamətində dövlət sərhədini pozmuş 1976-cı il təvəllüdlü Bərdə rayon sakini Cəfərov Tələt Allahyar oğlu və 1977-ci il təvəllüdlü Ağcabədi rayon sakini Quliyev Namiq Allahverdi oğlu 2270 qram marixuana ilə yaxalanıblar.

Dekabrın 13-də DSX və Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşlarının birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayonu ərazisində "Mercedes" markalı avtomobilə baxış keçirilərkən salonda 1145 qram heroin aşkarlanaraq götürülüb. Avtomobildə olan Azərbaycan vətəndaşları Şəmkir rayon sakini, 1991-ci il təvəllüdlü Əlizadə Vüsal Yaşar oğlu, Mingəçevir şəhər sakini, 1984-cü il təvəllüdlü Soltanov Elçin Muxtar oğlu və Sumqayıt şəhər sakini, 1977-ci il təvəllüdlü Hüseynov Hüseyn Novruz oğlu saxlanılıblar.

Faktlar üzrə cinayət işləri başlanılıb, zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

*"Azərbaycan"*

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### Türkiyədə 64 FETÖ-çü hərbçinin həbsinə order verildi

Ankara Baş Prokurorluğu Türkiyə ərazisində fəaliyyəti qadağan edilmiş FETÖ terrorçu təşkilatı ilə işbirliyində şübhəli bilinən 64 hərbi qulluqçunun həbsinə order vermişdir. Bu barədə "HaberTürk" telekanalı xəbər verir.

Şübhəli şəxslərin saxlanması əməliyyatı 2016-cı ildə ölkədə dövlət çevrilişi cəhdi ilə bağlı davam edən təhqiqat çərçivəsində keçirilir. FETÖ ilə əlaqədə şübhəli bilinənlər quru qoşunlarının çavuş heyətinin 35 nümayəndəsi və jandarmadan 29 çavuşdur. Hərbçilərin bəziləri FETÖ-nün daxili imamları adlandırılan şəxslərlə müntəzəm görüşlər keçirməkdə ittiham olunurlar. Daxili imamlar ələ alınmış hərbçilərlə qruplaşmanın ordudan kənardakı özəkləri arasında əlaqələndirilmə ilə məşğul olurlar.

### Brüsseldə polislə sağ radikallar arasında toqquşma

Belçikanın paytaxtı Brüsseldə 5 min nəfərə yaxın adam BMT-nin miqrasiya paktına etiraz əlaməti olaraq nümayiş keçirmişdir. Sağçı hərəkatların nümayəndələrinin qatıldığı aksiya Avropa İttifaqı təşkilatlarının mənzilqərargahlarının yerləşdiyi məhəllədə təşkil olunmuşdur. Hakimiyyət orqanları əvvəlcə mitinqi qadağan etsə də, sonradan nümayişi dinc keçirmək şərti ilə icazə vermişdir. Lakin nəticədə asayiş keşikçiləri onlara daş, fişəng və digər əşyalar atan, habelə dağılışmaq tələbinə məhəl qoymayan etirazçılarla toqquşmuşlar. Polis gözyaşardıcı qaz və təzyiqli sudan istifadə etmişdir. 69 nəfər saxlanmışdır.




Yüzlərlə nümayişçi Avropa Komissiyasının binasına soxulmağa cəhd etmişdir. Günün ikinci yarısında şəhərdə vəziyyət sakitləşmişdir.

Eyni zamanda Brüsselin mərkəzində təxminən 1000 nəfərin iştirakı ilə BMT-nin miqrasiya paktını dəstəkləyən aksiya keçirilmişdir. Nümayişdə solçu hərəkatların, qeyri-hökumət təşkilatlarının və Fransanın "sarı jiletlər" etirazçı hərəkatının nümayəndələri iştirak etmişlər.

### Beynəlxalq koalisiya Deyr əz-Zoru vurdu

ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiyanın aviasiyası Suriyanın Deyr əz-Zor əyalətinin cənub-şərqini vurmuş, nəticədə azı 17 nəfər həlak olmuşdur.



SANA agentliyinin xəbərinə görə, ölənlər arasında qadınlar və uşaqlar da var. Bombardmana Hacin şəhərinin şərqində yerləşən Buxater yaşayış məntəqəsi məruz qalmışdır. Bu arada Afrin şəhərinin şimal-qərbində yerləşən ərzaq bazarında minalanmış avtomobil partlamışdır. "Assoşieyted Press" agentliyinin xəbərinə görə, terror aktı nəticəsində azı 8 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

Afrin Türkiyə ilə sərhədin yaxınlığında yerləşir. Bir neçə gün əvvəl qonşuluqdakı Əzaz, Rai və Bab şəhərlərində də oxşar partlayış baş vermişdi.

*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Lənkəran Dövlət Universiteti
### *açıq tenderə dəvət edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT 1.** 1 saylı tədris korpusunda digər tikililərin inşası işləri.

**LOT 2.** LDU-nun Lənkəran şəhəri, H.Z.Tağıyev küçəsi, 118 ünvanında digər tikililərin inşası işləri.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50 nömrəli ünvandan ala bilərlər.

**İştirak haqqı:**
1-ci LOT üzrə 150 (bir yüz əlli) manat
2-ci LOT üzrə 250 (iki yüz əlli) manat
Əlaqələndirici şəxs: Alxasov Samir Müseyib oğlu
Telefon: (025) 255 14 80

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**Lənkəran Dövlət Universiteti**
**Hesab №: - AZ97AIIB33080019443870045138**
**VÖEN: - 2600135481**
**"Kapital Bank" ASC Lənkəran filialı**
**Kod: - 200383**
**VÖEN: - 9900003611**
**M/H: - AZ37NABZ01350100000000001944**
**SWIFT BIK: - AIIBAZ2X**

**Ünvan:** AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50; Faks: (025) 255 27 86; www.lsu.edu.az:office@lsu.edu.az

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 yanvar 2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **22 yanvar 2019-cu il saat 17:00-a** qədər Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **23 yanvar 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

*Təkrar*

## "Bakı Metropoliteni" QSC struktur bölmələrində paslanmayan metaldan müxtəlif təyinatlı metal konstruksiyaların (qapı, pəncərə və s.) hazırlanması, quraşdırılması və digər işlərin satın alınması üzrə
### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Zakir Hacıyev, telefon: 490-00-91) ala bilərlər.

LOT-1. "Bakı Metropoliteni" QSC struktur bölmələrində paslanmayan metaldan müxtəlif təyinatlı metal konstruksiyaların (qapı, pəncərə və s.) hazırlanması, quraşdırılması və digər işlərin satın alınması

**İştirak haqqı - 200 manat**
**Hesabın adı: "BAKI METROPOLITENI" QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏRTÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 yanvar 2019-cu il saat 18:00-a qədər,** tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **16 yanvar 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **17 yanvar 2019-cu il saat 15:30-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

### Atəşkəs rejimi sutka ərzində 28 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şirvanlı, Sarıcalı, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Yollar buz bağlayacaq

Sinoptiklər ölkə ərazisində gözlənilən qeyri-sabit və əlverişsiz hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, Bakıda və Abşeron yarımadasında dekabrın 18-dən 21-i gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Dekabrın 19-da gündüz yağışda fasilə olacaq.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, dekabrın 18-19-da Abşeron yarımadasında rütubətli hava şəraiti əksər meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Dekabrın 19-u axşam Azərbaycanın bəzi şərq rayonlarında, 20-si axşam, 21-də isə ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Yağıntının bəzi yerlərdə intensiv olacağı, çaylarda sululuğun artacağı, Lənkəran-Astara zonasının bəzi çaylarında isə qısamüddətli daşqın olacağı bildirilir. Dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimal edilir.

### Xəzər dənizində zəlzələ baş verib

Dekabrın 17-də Xəzər dənizində 4,7 bal gücündə zəlzələ baş verib.

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən AZƏRTAC-a bildirilib ki, yeraltı təkanlar yerli vaxtla saat 14:03:39-da qeydə alınıb.

Ocağı 44 kilometr dərinlikdə yerləşən zəlzələ yaxın yaşayış ərazilərində 3 bala qədər hiss olunub.

## A L L A H  R Ə H M Ə T  E L Ə S İ N !

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və komitənin kollektivi Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Rəşad Tağıyevə atası

**ƏNVƏR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Bərdə filialının müdiri

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Cəbrayıl Təhməzova anası

**AĞABİKƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi akademiyanın Qiyabi fakültəsinin dekanı, dosent

**GÜLSÜM FƏRZULLA QIZI ZÖHRABOVANIN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Biznes Universitetinin rektorluğu və professor-müəllim heyəti Azərbaycan Dövlət İqtisad Universiteti Maliyyə və maliyyə institutları kafedrasının müdiri, professor Əvəz Ələkbərova qayınanası

**QƏNİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8662
Sifariş 3823